

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 16 (656) ▪ 1 may 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev: «Mən çox şadam ki, Zərifə xanım kimi anam olmuşdur»

*Aprelin 27-də Azərbaycan Dövlət Musiqili Teatrında görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Mərasimdə iştirak edən Prezident İlham Əliyev nitq söyləmiş, Zərifə xanım Əliyevanın böyük həkim, böyük alim olduğunu, onun 90 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsinin mühüm mənası olduğunu bildirmişdir. Dövlət başçısı qeyd etmişdir ki, ölkəmizin müxtəlif yerlərində keçirilən bu tədbirlərdə, elmi simpoziumlarda oftalmologiya elmində gedən proseslər bir daha təhlil edilmiş, çox dəyərli fikirlər səslənmiş və bu tədbirlər oftalmologiya sənətinə, oftalmologiya elminə yeni bir töhfə olmuşdur.*

Zərifə xanımın Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev gənc kadrların hazırlanmasında onun çox böyük fəaliyyətinin olduğunu bildirmişdir: «İnsanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir, eyni zamanda Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüşdür».

Prezident İlham Əliyev Zərifə xanım Əliyevanın peşəkar həkim olmaqla yanaşı, çox xeyirxah insan olduğunu qeyd etmişdir: «Hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə də bağlı fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır».

Zərifə Əliyevanın böyük lider, ulu öndər Heydər Əliyevin ömürgün yoldaşı olmasına diqqət çəkən Prezident İlham Əliyev onun bütün işlərdə ümummilli liderə dayaq olduğunu, dəstəklədiyini xatırlamışdır: «Ailəmizdə olan abhava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi».

«Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir», - deyən Prezident İlham Əliyev Zərifə xanımın adının əbədiləşdirildiyini, yaşadığı küçənin, Oftalmologiya Mərkəzinin onun adını daşıdığını və Mərkəzlə üzbəüz abidəsinin ucaldıldığını diqqətə çatdırmışdır: «Əlbəttə ki, onun xatirəsi, onun obrazı onu tanıyanların qəlbində yaşayır. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi...

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır».




Səhiyyə naziri Oqtay Şirəliyev, Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor, Diplomdan Sonrakı Tibbi Təhsil Akademiyasının rektoru Larisa Moşetova, Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor, Diplomdan Sonrakı Tibbi Təhsil Akademiyasının kafedra müdiri Alevtina Brovkina, Türkdilli Ölkələrin Oftalmologiya Cəmiyyətinin sədri xanım Sunay Duman çıxış edərək akademik Zərifə Əliyevanın əvəzsiz xidmətlərindən bəhs etmiş, tibb elminə dəyərli töhfə verdiyini diqqətə çatdırmışlar.

Mərasimin sonunda görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyi münasibətilə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunmuşdur. Sonra Prezident İlham Əliyev akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinin əks olunduğu fotosərgiyə baxmışdır.

# Milli iqtisadi inkişaf modeli davamlı uğurlara təminat verir

## *Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «dəyirmi masa»*

*Prezident İlham Əliyevin 2013-cü il 21 yanvar tarixli «Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında» sərəncamına əsasən, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü respublikamızda və onun hüdudlarından kənarda geniş qeyd olunur. Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi xalqımız üçün unudulmaz tarixdir. Bu tarixin hər bir səhifəsinin cəmiyyətə dolğun şəkildə çatdırılmasında yaxından iştirak etməyə çalışan «Yeni Azərbaycan» və «Vergilər» qəzetləri, o cümlədən «Azərbaycanın vergi jurnalı»nın birgə təşkil etdiyi «Heydər Əliyev və Azərbaycanın milli inkişaf modeli» mövzusunda «dəyirmi masa»da ulu öndərin zəngin dövlətçilik irsinə, habelə onun rəhbərliyi altında uğurla gerçəkləşdirilmiş islahatlara nəzər salınmışdır.*



***«Vergilər» qəzetinin baş redaktoru Anar ƏLİYEV tədbiri giriş sözü ilə açaraq demişdir:***

- Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu strateji siyasi kursun cəmiyyətə çatdırılmasında daim öncüllərdən olmuş və fərqlənmiş «Yeni Azərbaycan» qəzeti bu günlərdə 20 illik yubileyini qeyd etmişdir. Dövlət başçısının sərəncamı ilə qəzetin bir neçə əməkdaşı yüksək fəxri adlarla təltif olunmuşdur. Bu münasibətlə həmkarlarımızı təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq. Heydər Əliyev ölkədə demokratiya və siyasi plüralizmin inkişafı naminə hər zaman kütləvi informasiya vasitələrinə, xüsusilə də mətbuata böyük qayğı ilə yanaşmışdır. Ümummilli liderin 1993-cü ilin iyununda xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra respublikada ictimai-siyasi sabitliyin tam bərqərar olması, vətəndaşların təhlükəsizlik təminatının və qanunçuluğun gücləndirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətində mühüm addımların atılması KİV-in fəaliyyəti, söz və mətbuat azadlığının genişləndirilməsi sahəsində də əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratmışdır. Həmin dövrdən başlayaraq, Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasının 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququ təmin edilmişdir. Ulu öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixdə imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım olmuşdur. Həmin fərmanla 1966-cı il oktyabrın 27-də yaradılmış və Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirən Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarə («Qlavlit») ləğv edilmişdir. Bu qətiyyətli addım 1875-ci ildə «Əkinçi» qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının ilk dəfə senzuradan tamamilə azad edilməsinə imkan yaratmışdır.

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğvi kütləvi informasiya vasitələrinin təsis olunması sahəsində bəzi süni əngəlləri də tam aradan qaldırmışdır. Azərbaycan Respublikası Prezidentinin 11 may 2002-ci il tarixli «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» fərmanı yazılı medianın təsis edilməsini və ondan istifadə imkanlarını qat-qat asanlaşdırmaqla bu sahədə liberallığı tam təmin etmiş, yazılı medianın dövlət qeydiyyatı ilə bağlı icazə sistemini aradan götürmüşdür.

Ümummilli lider bütün bunlarla yanaşı, ölkə mətbuatının qüsurlarını, problemlərini də hər zaman açıq şəkildə bildirir, jurnalistləri milli-mənəvi, etik dəyərlərə riayət etməyə çağırırdı. Böyük strateq mətbuat azadlığından sui-istifadə hallarını pisləyir, qanun pozuntularının yolverilməz olduğunu bildirirdi. Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü onda idi ki, o, peşə etikasını kobud şəkildə pozan, faktlara deyil, şəxsi mülahizələrə söykənən «yazarlar»ın da cəzalandırılmasına yol vermir, dövlət məmurlarına dözümlü olmağı tövsiyə edirdi. Bu fakt ulu öndərin ölkədə azad mətbuatın fəaliyyətinə necə böyük əhəmiyyət verdiyini bir daha təsdiqləyir.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmləndirilməsi prosesi sürətləndikcə Azərbaycan iqtidarı da söz və mətbuat azadlığının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Son 10 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən Prezident İlham Əliyev söz və mətbuat azadlığının inkişafını respublikada demokratik proseslərin vacib şərti kimi dəyərləndirir.

Milli mətbuatımızın bünövrəsi olan «Əkinçi» qəzetinin 130 və 135 illik yubileylərinin təşkili, onlarca jurnalistin yüksək fəxri adlara layiq görülməsi, qəzetlərin «Azərbaycan» nəşriyyatına olan borcunun dövlət büdcəsi hesabına silinməsi, Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, jurnalistlər üçün yeni binaların tikintisi ilə bağlı sərəncamların imzalanması və digər çoxsaylı faktlar dövlət başçısı İlham Əliyevin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin təcəssümüdür.

**Davamı 3-cü səhifədə**

2 «Vergilər» mövzusunda olimpiada keçirilmişdir

3 Cənubi Qafqazda istehsal olunan ÜDM-in 91%-i Azərbaycanın payına düşür

4 Bazar iqtisadiyyatının inkişafı üçün qanunverici baza formalaşmışdır

5 Heydər Əliyev etibarlı sosial müdafiə sisteminin banisidir

# «Vergilər» mövzusunda olimpiada keçirilmişdir

***Aprelin 26-da Azərbaycan Dövlət İqtisad Universitetində (AZDİU) ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Vergilər» mövzusunda 7-ci olimpiada keçirilmişdir. Olimpiadada Bakı və respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən 16 ali məktəbin 230-dək tələbə və magistrantı iştirak etmişdir.***

Tədbiri giriş sözü ilə açan Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Damət Bağırov bu olimpiadanın Vergilər Nazirliyi ilə AZDİU arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində keçirildiyini, hər il ənənəvi olaraq Bakıdan və respublikanın müxtəlif bölgələrindən çoxlu sayda tələbə və magistrantın bu tədbirə qoşulduğunu bildirmişdir. Olimpiadada Naxçıvan, Sumqayıt Dövlət, Gəncə Aqrar və Gəncə Texnologiya universitetlərindən tələbələrin iştirak etdiyi və gələcəkdə bu bilik yarışının coğrafiyasının genişlənəcəyi, Lənkəran Dövlət Universitetinin və Mingəçevir Texniki Universitetinin potensial iştirakçılar sırasında olduğu qeyd edilmişdir.

Olimpiadanın şəffaf şəkildə həyata keçirilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilmişdir.

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov gələcəyin potensial vergi ödəyiciləri olan gənc nəslin, o cümlədən tələbələrin və orta məktəb şagirdlərinin vergilər haqqında anlayış və biliklərinin artırılmasına, onlara vergi vərdişlərinin aşılanmasına Vergilər Nazirliyinin böyük əhəmiyyət verdiyini bildirmişdir. Vergilərin könüllü ödənilməsi sisteminə keçidin təmin edilməsinin ölkədə həyata keçirilən vergi siyasətinin ana xəttini təşkil etdiyi, bunun üçün cəmiyyətdə və gənclər arasında vergi mədəniyyətinin, vergi əxlaqının yüksəldilməsinin vacibliyi vurğulanmışdır. Son illər ərzində bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən xeyli iş görülmüş, vergilərin orta məktəblərdə və ali təhsil ocaqlarında tədrisinə diqqət artırılmış, orta məktəblər üçün hazırlanmış vəsaitlər yenidən çap olunmuş, orta təhsil ocaqlarında yaradılan tədris-metodiki kabinetlərin sayı 54-ə çatdırılmışdır.

Vergilərə həsr olunmuş olimpiadanın əhəmiyyəti vurğulanaraq qeyd edilmişdir ki, bu bilik yarışmasında yüksək nəticə qazanan tələbələr vergi orqanlarına işə qəbul zamanı müəyyən üstünlüklər əldə edirlər. İndiyə qədər keçirilmiş olimpiadaların qaliblərinin Vergilər Nazirliyinə işə qəbul olunaraq müxtəlif strukturlarda çalışdıqları bu tədbirin əhəmiyyətini təsdiq edir.

Tədbirin sonunda yüksək nəticə göstərərək bakalavr və magistrantlar arasında birinci, ikinci və üçüncü yerləri tutan tələbələr Vergilər Nazirliyi tərəfindən mükafatlandırılmışlar.



Olimpiadanın təşkili ilə bağlı ***Qafqaz Universitetinin müəllimi, nəzarətçi Elçin Süleymanov*** demişdir: «Artıq 2 ildir ki, olimpiadada sualların cavablandırılması elektron formada həyata keçirildiyi üçün nəticələrin düzgün və obyektivliyi şübhə doğurmur. Olimpiadanın gedişi ərzində tələbələr suallara sərbəst şəkildə cavab verir, fikirlərini yalnız suallara yönəldirdilər. Müsabiqə otağına dörd müəllim nəzarət edir, hər tərəfdən kamera ilə müşahidə aparılırdı».



### Olimpiada iştirakçılarının təəssüratları

***Rüfət Hüseynov (Azərbaycan Dövlət İqtisad Universiteti), magistrantlar arasında birinci yerin sahibi:***

*Hesab edirəm ki, vergilər mövzusunda keçirilən bilik yarışları gənclərin öz biliklərini daha rahat şəraitdə sərgiləməsinə imkan verir. Bu cür tədbirlər gənclər arasında vergilərə marağın artmasına, bu sahəyə böyük həvəsin oyanmasına səbəb olur...*

***Asif Mirzəyev (Azərbaycan Dövlət İqtisad Universiteti), magistrantlar arasında ikinci yerin sahibi:***

*Ərazi vergi orqanında çalışsam da, bugünkü tədbir bir magistrant kimi biliklərimi sınamaq baxımından olduqca vacib idi. Çoxsaylı iştirakçı arasında ikinci yerə layiq görülməyim məni sevindirir. Olimpiadanın təşkilində əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirirəm.*

***Validə Hacızadə (Azərbaycan Dövlət İqtisad Universiteti), bakalavr pilləsində təhsil alan tələbələr arasında birinci yerin sahibi:***

*Bu, olimpiadada 3-cü iştirakımdır. Nəhayət, bu dəfə yüksək nəticə göstərərək qalibiyyət əldə etdim. Məncə, əzmkarlıq və müəllimlərin dəstəyi, faydalı məsləhətləri hər bir çətin tapşırığın öhdəsindən gəlməyə kömək edir.*

***Nicat Əliyev (Azərbaycan Universiteti), bakalavr pilləsində təhsil alan tələbələr arasında ikinci yerin sahibi:***

*Ali təhsil alan tələbələr arasında vergilər mövzusunda olimpiada gərgin bilik rəqabəti şəraitində keçir. Lakin ən güclü olanlar yüksək yerləri qazanırlar. Bugünkü yarışmada ikinci olmağım hələ son deyil, hədəfim növbəti olimpiada və müsabiqələrdə birinci olmaqdır.*

***Nailə Cəbiyeva (Azərbaycan Dövlət İqtisad Universiteti), tələbə:***

*Olimpiadada ilk dəfə iştirak etdiyim üçün bəzi çatışmazlıqlara yol verdim. Gələn il də mütləq vergi olimpiadasına qatılacağam və inanıram ki, daha yüksək nəticə əldə edə biləcəyəm.*

***Nigar Əhmədova (Azərbaycan Universiteti), tələbə:***

*Olimpiadanın tələbələrin həyatındqa çox böyük rolu var. Biz belə olimpiadalarda iştirak etməklə vergi sahəsində hansı biliklərimizi daha da artırır, gələcəkdə daha yaxşı nəticələr göstərmək üçün çalışırıq. Məncə, bu olimpiadada iştirak etməyimizin gələcək iş həyatımıza da müsbət təsiri olacaq.*

**Arzu İBRAHİMOVA, Aytən NƏBİYEVA**

# Bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər ediləcək

*Azərbaycan Respublikasının bəzi qanunverilicilik aktlarında cəzaların sərtləşdirilməsi ilə bağlı yeni müdəaların əlavə edilməsi məsələsi Milli Məclisdə ekspertlər, millət vəkilləri tərəfindən geniş müzakirə olunur. Milli Məclisdən verilən məlumata görə, İnzibati Xətalar Məcəlləsinin 205-1-ci maddəsinə əlavə olunması gözlənilən müddəada yüksək cərimələrin tətbiq edilməsi nəzərdə tutulur.*

***Malların üzərinə vurulan nəzarət markalarını məhv edənlər 3 min manat cərimələnəcək***

İnzibati Xətalar Məcəlləsinə bəzi malların üzərində nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı ilə bağlı yeni maddə əlavə olunub. Yeni maddədə göstərilir ki, «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında», «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında», «Dərman vasitələri haqqında» və «Dini etiqad azadlığı haqqında» qanunların tələblərinin pozulması ilə hazırlanan (istehsal edilən), istifadə edilən və satılan nəzarət markaları, habelə onların hazırlanmasında (istehsal edilməsində) və yayılmasında istifadə olunan materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr müsadirə edilməklə, fiziki şəxslər min manat, vəzifəli şəxslər 2 min manat, hüquqi şəxslər isə 3 min manat məbləğində cərimə olunacaqlar. Azərbaycanda əqli mülkiyyət obyektlərinin elektron və kağız daşıyıcılarda nüsxələrinin qeyri-qanuni hazırlanmasının və yayılmasının qarşısının alınması müvafiq qanunvericilik aktları ilə tənzimlənəcək. Bunun üçün «Nəşriyyat işi haqqında» və «Müəllif hüququ və əlaqəli hüquqlar haqqında» qanunlara əlavə və dəyişiklər ediləcək.

***Torpaq üzərində mülkiyyət hüququnu pozma ilə bağlı cəzalar sərtləşdiriləcək***

Bu məsələ ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsinə əlavə və dəyişiklik ediləcək. Dəyişikliyə əsasən, torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə 100 manatdan 500 manatadək miqdarda cərimə və ya 240 saatdan 400 saatadək ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır. Qanunun hazırda mövcud olan variantında isə qeyd olunan əmələ görə 200 saatadək ictimai işlər nəzərdə tutulur.

***Hüquqi şəxslər dövlət sirrinin qorunmasında məsuliyyət daşıyacaqlar***

«Dövlət sirri haqqında» Qanunun 30.1-ci maddəsində «dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozan vəzifəli şəxslər və vətəndaşlar qüvvədə olan qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar» müddəasında «qanunvericiliyini pozan» sözlərindən sonra «hüquqi şəxslər» sözləri də əlavə ediləcək. Bununla da hüquqi şəxslər də vəzifəli şəxslər və vətəndaşlar kimi dövlət sirrinin qorunmasında məsuliyyət daşıyacaqlar.

Qanunvericilik aktlarında qeyd olunan əlavə və dəyişikliklərin bu günlərdə Milli Məclisin plenar iclasında qəbul ediləcəyi gözlənilir.

**Rəşad SADIQOV**

# Şahmat turniri başa çatıb

*Aprel ayının 27-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş şahmat turnirinə yekun vurulub.*

Turnir ənənəvi olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə keçirilir. Yarışda vergi orqanlarının bütün struktur bölmələrinin nümayəndələri iştirak edirlər.

Builki turnirin qalibi Vergilər Nazirliyi Aparatının əməkdaşı Əli Həsənov olub. Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Babək İbrahimov turnirdə 2-ci, Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşı Azay Məmmədov isə 3-cü yeri tutublar. Turnirdə fərqlənmiş əməkdaşlar mükafatlandırılıblar. İlk üç yeri tutan iştirakçılar may ayının 7-də dövlət orqanları arasında Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə keçiriləcək şahmat turnirində Vergilər Nazirliyini təmsil edəcəklər.




# «Heydər Əliyev və vergi siyasəti» mövzusunda açıq dərslər



Aprelin 23-dən başlanmış açıq dərslərdə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti barədə məlumat xarakterli filmlər nümayiş etdirilmiş, onun bilavasitə rəhbərliyi ilə Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və Konstitusiyanın 73-cü maddəsində vergilərlə bağlı müddəaların əks etdirildiyi, Vergilər Nazirliyinin yaradılması, həmçinin Vergi Məcəlləsinin qəbul edilməsi, Məcəllə ilə təsbit edilmiş vergi ödəyiciləri və vergi orqanlarının hüquq və vəzifələri, Vergilər Nazirliyinin strukturu barədə məlumatlar verilmişdir. Açıq dərslərdə ulu öndərə məxsus «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» ifadəsi ətrafında verginin funksiyaları, «Hər kəs vergi ödəməkdən şərəf duymalıdır» ifadəsi ətrafında vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlər, o cümlədən elektron xidmətlər barəsində müzakirələr aparılmışdır.

Açıq dərslərdə vergi tarixi, keçmiş dövrlərdə və indiki vaxtda Azərbaycanda tətbiq edilən vergilər barədə səhnələşdirilmiş kiçik tamaşalar göstərilmiş, əsası ümummilli liderimiz tərəfindən qoyulmuş vergi siyasətinin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi qeyd olunmuşdur. Məktəblilərə ölkəmizdə fiziki və hüquqi şəxslərin vergi orqanlarında qeydiyyatının internet vasitəsi ilə qısa müddət ərzində aparılmasının mümkün olduğu, vergi və rüsumların internet vasitəsi ilə ödənilməsinə başlanılması barədə məlumatlar verilmişdir.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı»na əsasən, Bakı Şəhər Vergilər Departamenti və ərazi vergilər idarələrinin əhatə dairəsinə daxil olan rayonların orta məktəblərində fəaliyyət göstərən vergilər tədris-metodiki kabinetlərində «Heydər Əliyev və vergi siyasəti» mövzusunda açıq dərslərin keçirilməsi müəyyənləşdirilmişdir. Bu məqsədlə orta məktəblərin və peşə liseylərinin rəhbərləri, vergilər mövzusunda tədris aparan müəllimlərlə görüşlər keçirilmiş, açıq dərslərin planı hazırlanmış və dərsin keçirilməsinə hazırlıqla əlaqədar müəllimlərə müvafiq metodiki köməkliklər göstərilmişdir.

Açıq dərslərdə Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elman Dadaşov, rəis müavinləri Elyar Süleymanov, Firdovsi Aslanov və Məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəisi Məhərrəm Əmiraslanov iştirak etmişlər.

əvvəli 1-ci səhifədə

davamı 4-cü səhifədə

# Milli iqtisadi inkişaf modeli davamlı uğurlara təminat verir



**«Yeni Azərbaycan» qəzetinin baş redaktoru Hikmət BABAOĞLU qonaqları salamlayaraq demişdir:**

- Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş bu tədbirin iştirakçısı olmaqdan qürur duyuram. İnanıram ki, «dəyirmi masa» çox səmərəli keçəcəkdir. İlk növbədə, «Yeni Azərbaycan» qəzetinin 20-illiyi ilə bağlı səmimi təbriklərə görə təşəkkürümü bildirirəm.

«Dəyirmi masa»mızın mövzusu Azərbaycanda idarəetmənin təşkili, idarəetmədə islahatların aparılması, bütövlükdə ölkəmizin inkişaf modeli, eyni zamanda cəmiyyətin ayrı-ayrı funksional vahidlərinin öz vəzifə borclarını yerinə yetirməsi ilə bağlıdır. Politologiya elmində dövlətin bir neçə tərifi var. Daha geniş yayılmışı belədir ki, dövlət sinifli cəmiyyətin siyasi sisteminin əsas institutu olub, cəmiyyəti idarə edir. Dövlət müxtəlif funksional orqanlar yaratmaqla, onlara səlahiyyətlər verməklə, cəmiyyətdə mövcud maddi və mənəvi dəyərlərin ədalətli bölgüsünü təmin etməklə bu idarəçiliyi həyata keçirir. Bu mənada, əgər Vergilər Nazirliyinin keçmişinə qısaca nəzər salsaq, görərik ki, nazirlik ulu öndər Heydər Əliyevin Azərbaycanda mərkəzi icra strukturlarını formalaşdırdığı bir dövrdə meydana gəlmiş, aparıcı mərkəzi icra strukturu kimi ən mürəkkəb, ən məsuliyyətli bir vəzifəni yerinə yetirmişdir. Azərbaycanın dövlət büdcəsinin ödənişlərlə təmin olunması, vergilərin toplanması, maddi gəlirlərin cəmiyyətdə ədalətli bölgüsünün təşkili funksional vahid kimi Vergilər Nazirliyinin əsas vəzifələrindən biridir. Bu baxımdan, vergi qanunvericiliyinin təbliğinə, vergi ödəyicilərinin maarifləndirilməsinə həmişə böyük ehtiyac duyulmuşdur. Ona görə də Vergilər Nazirliyinin həm qəzetinin, həm də jurnalının fəaliyyət göstərməsi qətiyyən təəccüblü deyildir. Çünki vergi sektoru daim islahatlar aparılan və yeniliklər tətbiq olunan sahədir. Vergilər Nazirliyi vətəndaşların aktiv hissəsi ilə işləyir, elə bir hissəsi ilə ki, onlar Azərbaycanın, necə deyərlər, iqtisadi damarlarını təşkil edən ayrı-ayrı yerli biznes strukturları, dövlət orqanlarıdır. Ötən illər ərzində Vergilər Nazirliyi öz funksiyasını layiqincə yerinə yetirimşdir. Bu gün Azərbaycanın büdcəsinin planlaşdırılmasında Vergilər Nazirliyinin xüsusi yeri və rolu var.

Bu tədbirin keçirilməsində əsas məqsədlərdən biri də ondan ibarətdir ki, Azərbaycanda mövcud vergi sisteminin gördüyü işləri, apardığı islahatları geniş təhlil edək. İqtisadi sferada baş verən keyfiyyət dəyişiklikləri, ölkəmizin iqtisadi inkişafını təmin edən maliyyə-bank sektorunun və digər iqtisadi resurslardan səmərəli istifadənin vəziyyəti ilə bağlı fikirlərimizi bölüşək. Bütün bu məsələlərlə bağlı hörmətli ekspertlərin, qonaqlarımızın fikirlərini eşitmək, mövzu ətrafında fikir mübadiləsi aparmaq hər birimiz üçün maraqlı olacaqdır.

## «Müasir vergi sisteminin fundamental əsasları yaradılmışdır»



*Ziyad SƏMƏDZADƏ,*
*Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik*

- Ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərliyi dövründə aparılmış məqsədyönlü islahatlar ölkəmizdə liberal iqtisadi münasibətlərə keçid üçün möhkəm zəmin yaratmışdır. Böyük strateq ölkənin milli maraqlarını əsas götürərək Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının prioritetlərini müəyyənləşdirmiş, müstəqil dövlətimizin iqtisadi-siyasi baxımdan qüdrətlənməsi üçün fundamental əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi mükəmməl iqtisadi strategiyanın əsas istiqamətlərindən biri ölkəmizdə vergi xidmətinin formalaşması ilə bağlıdır. Onun birbaşa təşəbbüsü ilə Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları yaradılmış, bu sahədə kompleks islahatların istiqamətləri müəyyən edilmişdir. Vergi sahəsində mükəmməl qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevin «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» fikri nəinki respublikada, eləcə də nüfuzlu beynəlxalq maliyyə qurumlarında azad bazar münasibətlərinin inkişafının fundamental əsaslarından biri kimi qiymətləndirilmişdir.

Ötən əsrin 90-cı illərində Heydər Əliyevin rəhbərliyi altında vergilərdən yayınmaların qarşısının alınması, vergi mədəniyyətinin yüksəldilməsi, bütövlükdə cəmiyyətdə şəffaflığın artırılması istiqamətində bir sıra fərman və sərəncamlar imzalanmış və həyata keçirilmişdir. Respublika iqtisadiyyatında çətinliklə əldə olunmuş makrosabitliyi qorumaq, yeni inkişaf planlarını həyata keçirmək üçün daha güclü maliyyə resursları tələb edilirdi. Bu vəzifənin yerinə yetirilməsi iqtisadi qanunvericiliyi təkmilləşdirmədən, vergi sisteminin idarəetmə strukturunu yenidən təşkil etmədən mümkün deyildi. Vergilər Nazirliyinin yaradılması ilə bu sahədə ciddi dönüşə nail olunmuşdur. Nazirliyin ölkənin iqtisadi qüdrətinin möhkəmlənməsində, maliyyə resurslarının səfərbər edilməsində müstəsna rolu var. Son illər dövlət büdcəsinin gəlirlərinin dinamikasında baş verən böyük dəyişikliklər əhəmiyyətli dərəcədə Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlıdır.

Ümummilli liderin tapşırığı əsasında ölkəmizdə həyata keçirilən vergi siyasətinin daha da gücləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, təkmil qanunverici bazanın yaradılması ilə bağlı ardıcıl tədbirlərin davamı kimi Vergi Məcəlləsi qəbul edilmişdir. Məcəllədə ölkə sahibkarlarının stimullaşdırılmasına, vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına xidmət edən müddəalar geniş əksini tapmışdır. Sənədin qəbulu vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində mühüm addım olmuş, eyni zamanda vergi sektorunda islahatların genişləndirilməsinə əhəmiyyətli zəmin yaratmışdır. Ölkədə iqtisadi inkişafın sürətləndirilməsi, optimal vergitutma mexanizminin və əlverişli investisiya mühitinin yaradılması, sahibkarlığın inkişafının stimullaşdırılması üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyulmuşdur.

Azərbaycanın vergi inzibatçılığının təkmilləşdirilməsi dövlətin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri olmuşdur və bu sahədə sistemli tədbirlər həyata keçirilir. Vergi xidmətində yeni üsul və vasitələrin tətbiqi, vergi ödəyiciləri ilə vergi xidməti əməkdaşları arasında şəffaf münasibətlərin qurulması, vergi bəyannamələrinin yeni formada qəbulu, bütün ödəmələrin banklar vasitəsilə həyata keçirilməsinə başlanılması vergi inzibatçılığının əhəmiyyətli şəkildə yaxşılaşmasına, şəffaflığın təmin edilməsinə şərait yaratmışdır.

Son illər vergi siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində aparılan işlər ölkənin maliyyə resurslarının səfərbər edilməsini, dövlət büdcəsinin parametrlərinin köklü dərəcədə yaxşılaşmasını təmin etmişdir. Təkcə onu demək kifayətdir ki, son illərdə dövlət büdcəsinin gəlirləri dəfələrlə artmış, ölkəmizin sosial-iqtisadi inkişafı sürətlənmişdir. Bu gün vergi sistemində aparılan islahatlar bütövlükdə iqtisadi inkişafı, real sektorun daha səmərəli fəaliyyətini təmin etmək, vergi mədəniyyətini yüksəltmək məqsədi daşıyır. Sahibkarlığa kömək göstərilməsi, onun strukturunun təkmilləşdirilməsi, qanunda nəzərdə tutulmuş hər hansı sahibkarlıq növü üçün əlverişli şəraitin yaradılması, bürokratik əngəllərin aradan qaldırılması istiqamətində görülən işlərin səmərəliliyi artır, «bir pəncərə» sisteminin tətbiqi öz müsbət bəhrələrini verir.

Azərbaycanın iqtisadi inkişafının sürətlənməsi, yeni iqtisadi çağırışların meydana çıxması, bir çox sahələr kimi, vergi sistemində də qanunvericiliyin təkmilləşdirilməsini zəruri edir. Vergi Məcəlləsinə edilən dəyişikliklər iqtisadi həyatın real qiymətləndirilməsindən, dünya iqtisadiyyatında baş verən proseslərdən, ölkənin milli maraqlarını qorumaq tələblərindən irəli gəlir. Qanunvericiliyin təkmilləşdirilməsi ilə paralel aparılan islahatlar elektron xidmətlər, ümumilikdə vergilərin könüllü ödənilməsi sisteminin inkişafına, vergi ödəyicilərinin hüquqlarının etibarlı müdafiəsinin təminatına, vergi fırıldaqçılığına və vergilərin ödənilməsindən yayınma halları ilə mübarizənin gücləndirilməsinə, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sisteminin inkişafı və müasir tələblərə cavab verən informasiya sisteminin yaradılmasına dərin əsaslar yaradır.

## «Cənubi Qafqazda istehsal olunan ÜDM-in 91%-i Azərbaycanın payına düşür»



*Aftandil BABAYEV, Azərbaycan Mərkəzi Bankının sədr müavini*

- Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dərin keçid böhranı yaşayan, iqtisadi potensialın yarıdan çoxunu itirən, hiperinflyasiyanın, kütləvi yoxsulluq və səfalətin tüğyan etdiyi, xəzinəsi boş bir ölkə idi. Makroiqtisadi idarəetmə mexanizmi iflic vəziyyətdə idi. Ölkə hələ də rubl zonasına daxil idi. Ciddi büdcə-maliyyə böhranı yaşanırdı - dövlət büdcəsinin kəsiri ÜDM-in 10%-dən artıq idi. Bu kəsir pul emissiyası, yəni Mərkəzi Bankın kredit emissiyası hesabına örtülürdü. Manat dövriyyəyə buraxıldığı ilk iki il ərzində ABŞ dollarına qarşı dəyərini 18 dəfə itirmişdi.

Bank sistemində də dərin böhran yaşanırdı. Sayı yüzlərlə olan kiçik banklar iqtisadiyyatda heç bir rol oynamır, fəaliyyətləri dar çərçivədə əməliyyatlarla xarakterizə olunurdu. Ölkədə maliyyə və ödəniş infrastrukturu yox dərəcəsində idi. Bank vasitəsilə nağdsız ödənişləri həyata keçirmək üçün həftələrlə vaxt sərf edilirdi. Bütün bunların nəticəsində ölkədə 1800%-ə çatan hiperinflyasiya müşahidə olunurdu.

Ümummilli liderin xalqın təkidli xahişi ilə hakimiyyətə gəlişindən sonra qısa müddətdə ölkədə dövlətçiliyin əsası olan ictimai-siyasi sabitlik bərpa olundu. Siyasi sabitlik zəminində qarşıda duran prioritet vəzifələrdən biri də ölkədə makroiqtisadi sabitliyin bərpa edilməsi idi. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1994-cü il tarixli «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında» fərmanı ilə iqtisadiyyatda makroiqtisadi sabitliyin təmin edilməsi üçün əsas istiqamətlər müəyyənləşdirildi. Fərmanın müddəalarından irəli gələn vəzifələrin icrası qısa zaman ərzində özünü makroiqtisadi göstəricilərin pozitiv dinamikasında, xüsusilə də inflyasiyanın cilovlanmasında, əhalinin real həyat tərzinin yaxşılaşmasında göstərdi.

1995-ci ilin əvvəllərində ulu öndərin rəhbərliyi altında siyasi sabitlik kimi həlledici təməl bazası əsasında sosialyönümlü bazar iqtisadiyyatını əsas götürən iqtisadi islahatlar proqramının işlənməsinə və həyata keçirilməsinə başlanıldı, ilk xarici kreditlər alındı. Bu kreditlər ölkənin valyuta balansının və büdcəsinin maliyyələşdirilməsində mühüm rol oynadı, büdcə kəsiri dəfələrlə azaldıldı. Ölkənin bank-maliyyə sektoru sabitləşdirildi, ikipilləli bank sistemi formalaşdırılaraq fəaliyyətə başladı. Pul siyasətinin büdcə kəsirinin maliyyələşdirilməsində istifadəsi praktikasına son qoyuldu, 1994-cü ildəki 1887%-lik inflyasiya 1996-cı ildə birrəqəmli göstərici ilə əvəzləndi. Burada, təbii ki, manatın məzənnəsinin sabitləşməsi də böyük rol oynadı. Beləliklə, ulu öndərin hakimiyyətə qayıdışı, digər sahələr kimi, bank sektorunun formalaşması və inkişafında da dönüş nöqtəsi oldu. Ümummilli liderin birbaşa dəstəyi ilə dövlət banklarının yenidən qurulması, özəl bankların kapitalizasiya və konsolidasiyası, bank infrastrukturunun formalaşdırılması istiqamətində tədbirlər həyata keçirildi. Bu islahatlar müasir və dinamik bank sisteminin qurulması məqsədilə ən yaxşı xarici təcrübə və standartların nəzərə alınması ilə aparıldı. Mütərəqqi xarici təcrübəyə əsaslanan qanunvericilik bazasının yaradılması bank islahatlarının əsasını təşkil etdi. Bankların fəaliyyəti Avropa direktivlərinə uyğun müasir dövlət tənzimlənməsi ilə əhatə olundu.

Banklara olan tələblərin davamlı şəkildə artırılması bu sektorda ciddi konsolidasiya və restrukturizasiya proseslərinə imkan verdi, özəl bankların sayı optimallaşdırıldı. 2000-ci illərin əvvəllərinə bankların sayı 4 dəfəyədək azaldıldı, bank kapitalının həcmi 13 dəfə artdı. Bir sıra ölkələr üçün problem olan dövlət bankları məsələsi, əsasən, həllini tapdı. Bank sektorunda rəqabət mühiti əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, xarici kapitalın iştirakına mədudiyyətlər götürüldü, xarici bankların ölkəyə gəlişi təşviq olundu.

Banklar fəaliyyətini beynəlxalq standartlar əsasında qurmağa başladılar. Bank xidmət və məhsullarının çeşidi və keyfiyyəti yaxşılaşdı, bu sahədə infrastrukturun inkişafı sürətləndi, ödənişləri fasiləsiz və saniyələr ərzində təmin edən müasir elektron və klirinq-hesablaşma sistemləri, prosessinq mərkəzləri yaradıldı. Ölkədə ilk dəfə olaraq bank sektorunda maliyyə hesabatlarının beynəlxalq standartlaşması həyata keçirildi.

Bu siyasət ötən son 10 ildə Prezident İlham Əliyev tərəfindən «müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah» prinsipi ilə davam etdirilir. Sivil və inkişaf etmiş cəmiyyətin qurulması istiqamətində bəyan edilmiş hədəflər artıq günümüzün reallığına çevrilmişdir. Son 10 ildə Azərbaycan «təqibedici artım» modelini uğurla həyata keçirmiş, keçid dövrünü başa vurmuş, ölkə modern inkişaf mərhələsinə adlamışdır. Həyata keçirilən yeni iqtisadi doktrina sayəsində milli iqtisadiyyatın həcmi son 10 ildə 3,4 dəfə böyümüşdür. Hazırda Cənubi Qafqazda istehsal olunan ÜDM-in 91%-ə qədəri Azərbaycanın payına düşür. Ölkə iqtisadiyyatının ağırlıq dərəcəsini təsəvvür etmək üçün bildirək ki, Azərbaycanda ÜDM-in 1%-lik nominal artımı təxminən 1,5 milyard dollar təşkil etdiyi halda, bu göstərici Gürcüstanda cəmi 160 milyon dollara bərabərdir.

Son 10 ildə ölkədə qeyri-neft iqtisadiyyatı 3 dəfə artmışdır. Adambaşına düşən milli gəlir paritet qiymətlərlə 10 min dollara çatmış, Azərbaycan orta gəlirli ölkəyə çevrilmişdir. Bunun üçün cəmi 3 il kifayət etmişdir. Halbuki dünya praktikasında orta gəlirli ölkəyə çevrilmək üçün təxminən 11 il vaxt tələb olunur.

Azərbaycan son 10 ildə sürətli iqtisadi artım və makroiqtisadi sabitlik hədəflərini müvəffəqiyyətlə balanslaşdıra bilmişdir - inflyasiya birrəqəmli səviyyədə qorunmaqla əhali gəlirlərinin artım tempindən əhəmiyyətli dərəcədə az olmuş, habelə manatın məzənnəsinin sabitliyi təmin edilmiş, regionda ən dayanıqlı və etibarlı valyutaya çevrilməsinə nail olunmuşdur. Ölkənin, o cümlədən Mərkəzi Bankın beynəlxalq normalardan bir neçə dəfə çox valyuta ehtiyatları vardır və bu da zəruri «təhlükəsizlik yastığı» rolunu oynayır.

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 47 milyard ABŞ dollarını ötmüşdür ki, bu da ölkəyə idxalın təxminən 3 il ərzində fasiləsiz şəkildə maliyyələşdirilməsinə kifayət edir. Bu vəsait xarici dövlət borcunu təxminən 10 dəfə üstələyir. Valyuta ehtiyatlarının ÜDM-dəki çəkisinə görə Azərbaycan dünyada lider ölkələrdən birinə çevrilmişdir.

## «Azərbaycanda ədalətli sığorta-pensiya sistemi yaradılmışdır»



*Zakir BABAYEV, Dövlət Sosial Müdafiə Fondunun sədr müavini*

- Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqın sosial vəziyyətinin yaxşılaşmasına çalışır, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, vətəndaşlara diqqət və qayğının artırılması ilə bağlı mühüm addımlar atırdı. Hələ sovet dövründə pensiya sistemi ilə bağlı proqramlar birbaşa mərkəzi rəhbərlik tərəfindən həyata keçirilsə də, Heydər Əliyev əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün xüsusi qərarlar qəbul edirdi. Böyük öndərin respublikaya ikinci rəhbərliyi dövründə isə bu sahəyə diqqət daha da artmış, pensiya sisteminin inkişafında yeni mərhələ başlanmışdır.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin leytmotivi ədalətli pensiya-sığorta sisteminin yaradılması, sosial bərabərlik prinsiplərinə əsaslanan mexanizmlərin təmin edilməsi olmuşdur. Heydər Əliyevin müəllifi olduğu milli sosial-iqtisadi inkişaf modelinin unikallığı onunla şərtlənir ki, ölkədə bazar iqtisadiyyatının inkişafı üçün atılan hər bir addım əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir, aztəminatlı təbəqənin mənafeyi ilə uzlaşdırılaraq həyata keçirilirdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi sosial-pensiya sistemində qanunvericilik bazasının formalaşdırılmasına, yeni proqramların qəbuluna, eyni zamanda ölkədə sosial dövlət konsepsiyasının mühüm istiqamətlərinin müəyyənləşdirilməsinə imkan yaratmışdır. Bütün bu tədbirlərin əsas məqsədi hər bir vətəndaşın rifahının yaxşılaşdırılmasından, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin yüksək səviyyəyə qaldırılmasından ibarət olmuşdur.

Ümummilli lider Heydər Əliyevin böyük müdrikliklə müəyyənləşdirdiyi həmin istiqamətlər çərçivəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, habelə vətəndaşların pensiya təminatının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Beləliklə, həm əhaliyə pensiya və müavinətlərin ödənilməsi, həm də digər sosial ödənişlər üzrə xərclərin artımı müşahidə olunmağa başlamışdır. Ümumilikdə, 1995-2003-cü illər ərzində aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə 8 fərman və sərəncam imzalanmışdır. Bunların tətbiqi nəticəsində, eləcə də ölkədə əməkhaqlarının artımı hesabına pensiya və müavinətlərin orta aylıq məbləği 1995-2003-cü illərdə 8 dəfə artmışdır.

Əhalinin sosial müdafiəsi sistemində ən mühüm dəyişikliklərdən biri «Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası»nın (2001-2005-ci illər) hazırlanması və qəbulu ilə bağlıdır. Konsepsiya sığorta-pensiya və sosial yardım sistemlərinin bir-birindən ayrılmasını, sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin qurulmasını əhtiva edirdi. Bu dəyişikliklərin başlıca elementi sosial sığorta haqlarının fərdi uçotuna əsaslanan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin yaradılması idi. Fərdi uçot sisteminin tətbiqində əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin təmin edilməsi idi. Nəticədə həyata keçirilən məqsədyönlü siyasət sosial sığorta sahəsində idarəetmənin yenilənməsinə, vahid sığorta-pensiya sisteminin qurulmasına gətirib çıxardı. Məcburi dövlət sığorta haqlarının yığılmasından tutmuş pensiyaların təyin olunması, maliyyələşdirilməsi, ona nəzarət vahid şəkildə mərkəzi icra orqanı tərəfindən həyata keçirilməyə başladı.

Ulu öndərin Azərbaycanda sosial sığorta sistemi ilə bağlı yaratdığı möhkəm təməl 2003-cü ildən sonrakı dövrdə də ölkə həyatında mühüm rol oynamış, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına təkan vermişdir. Bu gün ölkədə tətbiq olunan yeni sığorta-pensiya sistemi pensiyaların artırılması mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə həyata keçirilməsinə, mövcud maliyyə imkanlarının bütün pensiyaçılar arasında ədalətli bölgüsünə imkan yaradır. Bu mexanizm çərçivəsində ölkəmizdə ilk dəfə olaraq istehlak qiymətləri indeksinin illik səviyyəsinə, yəni inflyasiyaya uyğun indeksləşdirmənin aparılmasına başlanılmışdır. Hazırda ölkədə orta aylıq pensiyanın məbləği 153 manat təşkil edir və Azərbaycan bu göstəriciyə görə MDB-də ilk yerlərdən birini tutur. Orta aylıq pensiya məbləği orta aylıq əməkhaqqının 40%-ni təşkil edir və ölkəmiz bu göstəriciyə görə Avropa meyarlarına yaxınlaşır. Hazırda pensiya sisteminin yeni inkişaf konsepsiyası üzərində ciddi iş gedir. Sənəddə müəyyən olunmuş hədəflərin reallaşdırılması Azərbaycan vətəndaşlarının sosial rifah səviyyəsinə görə inkişaf etmiş dövlətlər qrupunda yer almasına imkan yaradacaqdır.

əvvəli 3-cü səhifədə

davamı 5-ci səhifədə

# Milli iqtisadi inkişaf modeli davamlı uğurlara təminat verir



## «Vergi islahatları hər bir vətəndaşın mənafeyinə xidmət edir»

*Akif MUSAYEV, Vergilər Nazirliyinin Vergi siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, AMEA-nın müxbir üzvü, professor*

- Müstəqillik illərində Azərbaycanda müasir dövrün tələblərinə cavab verən vergi sisteminin formalaşdırılması məhz ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində müasir tələblərə cavab verən vergi sisteminin yaradılması mümkün olmuşdur. Məlumdur ki, ötən əsrin 90-cı illərinin ortalarına qədər vergi xidməti köhnə inzibati idarəetməyə söykənən, yalnız vergilərin toplanması ilə məşğul olan bir qurum kimi fəaliyyət göstərirdi. Məhz dövlət nəzarətinin qaydaya salınması və bu sistemin təkmilləşdirilməsi, həmçinin sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması istiqamətində Heydər Əliyevin verdiyi fərman və sərəncamlar vergi xidmətinin fəaliyyətinin yenidən qurulmasını şərtləndirdi. Bütün bunlar bazar iqtisadiyyatına keçidin ən vacib şərtlərindən olan vergi münasibətlərinin tənzimlənməsinə, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşmasına, çevik vergi siyasətinin aparılmasına xidmət edirdi.

2001-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında yeni tarixi hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan birinə çevrildi. Bir sözlə, vergi islahatlarının bütün istiqamətləri vergi münasibətlərinin tənzimlənməsinin hüquqi əsasını qoyan Vergi Məcəlləsində öz əksini tapmışdır. Burada ölkəmizdə tətbiq edilən vergilərin dəqiq siyahısı müəyyən edilmiş, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri təsbit olunmuş, vergilərin ödənilməsi üzrə öhdəliklərin yaranmasının (dəyişdirilməsinin, dayandırılmasının) əsasları və icrasının qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin qəbulu, yeni və vahid qanunvericilik bazasının yaradılması vergi sistemində aparılan islahatlara mühüm təkan verməklə dövlət-sahibkar münasibətlərində yeni bir yanaşmanın əsasını qoymuşdur. Vergi siyasətinin təkcə büdcə gəlirlərinin təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyulmuşdur. Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u təsbit olunmuş, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdır. Eyni zamanda, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar müəyyən edilmişdir.

Son 10 ildə mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-ədək azaldılmış, fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmi sadələşdirilmişdir. Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmiş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmiş, bankların, sığorta və təkrarsığorta şirkətlərinin mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad olunmuşdur.

Ulu öndərin layiqli davamçısı - möhtərəm Prezident İlham Əliyev bu siyasəti son 10 ildə uğurla davam etdirir. Son illər ölkənin vergi sistemində ödəyicilərin maraq və mənayenin etibarlı şəkildə qorunmasına, onlara göstərilən xidmətin yaxşılaşdırılmasına, ümumilikdə biznes mühitinin liberallaşdırılmasına xidmət edən uğurlu islahatlar həyata keçirilmişdir. 2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər paketini nəzərdən keçirdikdə dövlətimizin mütərəqqi vergi sisteminin formalaşmasında nə qədər maraqlı olduğu aydın görünür.

Vergi Məcəlləsinə son əlavə və dəyişikliklər həm mahiyyəti, həm tətbiq dairəsi, həm də təqdim olunmuş güzəştlərin həcmi və kateqoriyaları baxımından son illərin ən geniş dəyişikliklər paketidir. Təkcə onu qeyd etmək istərdim ki, Vergi Məcəlləsinin 63 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişiklik edilmişdir ki, bu da ümumilikdə Məcəllənin müddəalarının 30%-nə dəyişiklik olunması deməkdir. Son dəyişikliklərin tətbiqi ilə əlaqədar 35-dən yuxarı müxtəlif normativ-hüquqi sənədin hazırlanması nəzərdə tutulur.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin konseptual əsasları bir tərəfdən yeni qlobal iqtisadi çağırışlara əsaslanır, digər tərəfdən də ölkənin ortamüddətli hədəflərə istiqamətlənmiş məqsədlərinə xidmət edir. Bu dəyişikliklərdə, həmçinin, vergi qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması, habelə son bir neçə il ərzində qarşıya çıxan problemlərin həlli ilə bağlı məsələlər nəzərə alınmışdır. Qruplaşdırsaq, dəyişikliklər vergi siyasətinin dörd istiqamətini əhatə edir: vergi ödəyicilərinin hüquqlarının müdafiəsi; vergi ödəyicilərinin mənafelərinin qorunması; vergi inzibatçılığının təkmilləşdirilməsi; vergi nəzarətinin təkmilləşdirilməsi.

Bunların sırasında Vergi Məcəlləsinə vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi yer tutur. Bu, bizim ölkənin təcrübəsində ciddi yenilikdir. Vergi tərəfdaşlığı sazişi - vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilmiş, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri, müvafiq olaraq, 2000 manatdan 2500 manata və 24000 manatdan 30000 manata qaldırılmışdır. Bununla yanaşı, gəlir vergisi üzrə güzəştlərin həcmi də genişləndirilmişdir. Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

Bütün bunlar bir daha təsdiqləyir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş vergi islahatları bu gün də hər bir vətəndaşın maraq və mənafeyini özündə ehtiva edir.



## «Bazar iqtisadiyyatının inkişafı üçün qanunverici baza formalaşmışdır»

*Xanhüseyn KAZIMLI, Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor*

- Ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə - 1969-1982-ci illərdə respublikamızın güclü iqtisadiyyatının təməlinin qoyulması sayəsində müstəqil Azərbaycanın hazırkı iqtisadi inkişafı təmin edilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə həyata keçirilən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələri, eləcə də sosial sektor, rabitə, təhsil, elm və mədəniyyət inkişaf etdi. Respublikada aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində minlərlə azərbaycanlının keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı. Respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanın keçmiş müttəfiq respublikalar sırasında öncül yerlərdən birinə çıxması ilə nəticələndi.

Ulu öndər bu fəaliyyəti ilə təkcə ittifaq respublikası kimi deyil, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu. Ulu öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqillyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlandı. İlk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində əsaslı islahatlara start verildi.

Qanunvericiliyin təkmilləşdirilməsi, yeni iqtisadi qanunların hazırlanması ilə bağlı bir sıra ciddi addımlar atıldı. 1993-1997-ci illərdə «Sahibkarlıq fəaliyyəti haqqında», «Antiinhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» və «Maliyyə sənaye qrupları haqqında» qanunlar hazırlandı. Xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. Həmin dövrdə qəbul olunan «Sahibkarlıq haqqında» Qanun sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar prinsipi əsasında inkişafı üçün əlverişli hüquqi zəmin demək idi.

Bazar iqtisadiyyatının əsas tələblərindən biri olan özəlləşdirmə həyata keçirildi. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə də özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

Ulu öndərin həyata keçirdiyi iqtisadi siyasət ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi kimi mühüm həlqələri əhatə etməklə bu strategiyanın uğurla həyata keçirilməsinə güclü təkan verdi. Bu siyasətin nəticəsi olaraq, Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında göstərdi.



## «Xaricdə təhsil alan tələbələrə yüksək qayğı göstərilir»

*Əlican BABAYEV, «Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər» İctimai Birliyi Ali Məclisinin sədri, professor*

- Ulu öndər Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində respublikada rəhbərliyə başlaması ilə Azərbaycan cəmiyyəti millli şüurun formalaşması baxımından daha aktiv, məhsuldar bir mərhələyə qədəm qoymuşdur. Həmin illərdə ümummili liderin xalq qarşısında ən böyük xidmətlərindən biri də onun milli kadr potensialının, həmçinin Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu nadir ixtisaslar üzrə mütəxəssislərin hazırlanması istiqamətində atdığı konkret addımlar olmuşdur. Həmin dövrün şahidlərindən biri kimi demək istərdim ki, Heydər Əliyevin respublika rəhbəri olaraq ilk gündən qarşıya qoyduğu başlıca məqsədlərdən biri məhz kadrların milliləşdirilməsi idi. Milli kadr quruculuğuna göstərilən həssas münasibət bir sıra reallıqlarla şərtlənirdi. Həmin dövrdə dövlət idarəçiliyində başqa millətlərdən olan insanların önə keçməsi, ana dilinin sıxışdırılması, kosmopolit ideyaların təbliği fonunda milli ruhun, milli özünüdərkin zəifləməsi ulu öndər Heydər Əliyevi ciddi narahat edirdi. Respublikanın gələcək taleyini böyük uzaqgörənliklə düşünən Heydər Əliyev dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə milli kadrların yetişdirilməsini, azərbaycanlıların vəzifədə irəli çəkilməsini vacib məsələlərdən biri kimi nəzərdən keçirirdi. Bunun başlıca səbəblərindən biri də bəzi yeni ixtisaslar üzrə respublikada kadrların hazırlanmaması idi.

Bundan başqa, Azərbaycana müsabiqədənkənar qəbul üçün ayrılan yerlərin sayının azlığı ulu öndəri ciddi narahat edirdi. Məhz buna görə də Heydər Əliyev azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamıza ayrılmış müsabiqədənkənar yerlərin sayınını artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən tələbələrin sayı cəmi 60 nəfər idisə, 1975-ci ildə bu rəqəm 600 nəfərə, 1978-ci ildə 900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman Azərbaycan Dövlət Universitetinə *(indiki BDU - red.)* bir il ərzində qəbul olunanların sayına yaxın idi. Ulu öndər Heydər Əliyevin sonralar bəyan etdiyi kimi, kvotanın artırılması heç də asan başa gəlmir, SSRİ rəhbərliyi ilə aparılan gərgin danışıqlar nəticəsində mümkün olurdu. Müqayisə üçün bildirək ki, digər müttəfiq respublikalar üçün 100-150-dən artıq yer ayrılmırdı.

Ümumilikdə, ötən əsrin 70-80-cı illərində 15 mindən çox Azərbaycan gənci respublikamızdan kənarda - keçmiş SSRİ-nin 50-dən artıq şəhərinin 170 ali məktəbində 250-yə yaxın ixtisasa yiyələnmişdi.

Hər il kənarda ali təhsil almağa göndərilən gənclərlə respublika rəhbərinin görüşlərinin keçirilməsi də xoş ənənəyə çevrilmişdi. Heydər Əliyev avqustun son günlərində SSRİ-nin müxtəlif şəhərlərinə yola düşməyə hazırlaşan gənclərlə görüşür, onlara arzu və istəklərini bildirir, tövsiyələrini verirdi. Heydər Əliyevin yüksək rəhbər qayğıkeşliyini öz taleyində hiss edərək məhz onun xeyir-duası, dəstəyi ilə Moskvada ali təhsil almış gənclərdən biri kimi həmin görüşlərdə iştirakımı bu gün də böyük həyəcanla, qürurla xatırlayıram.

Xatırladım ki, ulu öndər 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin 1998-ci ildə keçirilən ümumrespublika toplantısında gənclərin xaricdə təhsil alması məqsədilə xüsusi dövlət proqramının hazırlanmasının vacibliyini önə çəkmişdi. Həmin illərdə respublikanın iqtisadi vəziyyəti buna imkan verməsə də, ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyev bu nəcib təşəbbüsü praktik surətdə gerçəkləşdirmişdir. Azərbaycan elminin, təhsilinin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirən dövlət başçısı bu yolla ölkədə güclü insan kapitalının formalaşdırılmasına çalışır.

Gənclərin xaricdə təhsil almağa göndərilməsi ilə bağlı hələ 70-ci illərdə əsası qoyulmuş mütərəqqi ənənənin bərpası dövlət idarəçiliyi üçün yüksək ixtisaslı kadrlar hazırlamaq məqsədi daşıyır. Dövlət başçısının 16 aprel 2007-ci il tarixli «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında», 5 sentyabr 2007-ci il tarixli «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın 2007-2008-ci tədris ilində maliyyələşdirilməsi haqqında» sərəncamları da məhz bu məqsədə xidmət edir. Ümumilikdə, proqram əsasında 5000 tələbənin xaricdə təhsil almağa göndərilməsi nəzərdə tutulur ki, bu da Azərbaycan dövlətinin intellektual gələcəyi baxımından son dərəcə əhəmiyyətlidir.



## «Azərbaycan yuxarı gəlirli ölkələr sırasına daxil olmuşdur»

*Ədalət MURADOV, İqtisadi İnkişaf Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri*

- Ümummillli liderimiz Heydər Əliyev keçmiş Sovet İttifaqının rəhbərləri arasında istisna təşkil edən şəxsiyyətlərdən biri idi ki, həmin dövlətin əsasının möhkəm olmadığını bilir, onun çökəcəyini öncədən görürdü. Böyük strateqin fəaliyyətinin əsasında duran əsas amillərdən biri də Azərbaycan iqtisadiyyatını gələcəkdə baş verəcək əsaslı dönüşə hazırlamaq idi. Məhz buna görə də ulu öndər hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanda yaradılan milli gəlirin yalnız 60%-nin respublikada saxlanıldığını, digər ittifaq respublikaları ilə müqayisədə bu göstəricinin çox aşağı olduğunu vurğulayır, faktiki olaraq Azərbaycanın ittifaqdan asılı olmadığını diqqətə çəkirdi.

Heydər Əliyev respublikamızın aqrar iqtisadiyyatdan sənaye iqtisadiyyatına, aqrar cəmiyyətdən sənaye cəmiyyətinə, aqrar sivilizasiyadan yüksək sənaye sivilizasiyasına çatmasına nail oldu. Ölkədə yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradıldı. 1969-cu ilədək olan 100 illik dövrdə Azərbaycanda təxminən 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə onların sayı 1048-ə catdı. Azərbaycan bir çox istehsal sahələrinin inkişafına görə Sovet İttifaqında aparıcı yerlərdən birini tutdu. Bu dövrdə Azərbaycanda istehsal olunan məhsullar dünyanın 65 ölkəsinə ixrac edilirdi. Həmin dövrdə istehsal olunmuş sənaye məhsulunun həcmi əvvəlki 50 ildə istehsal olunmuş ümumi sənaye məhsulunun həcminə bərabər idi.

Bir sözlə, müstəqil Azərbaycan iqtisadiyyatının əsasları, onun strukturu məhz həmin dövrdə formalaşmışdır. Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycanın milli iqtisadiyyatını formalaşdırmış, qısa vaxt ərzində ölkə iqtisadiyyatı dərin iqtisadi böhrandan xilas olmuşdur. Bu strategiyanın bir sıra səciyyəvi xüsusiyyətləri diqqəti cəlb edir. Birincisi, sosial-iqtisadi inkişafın proqramlaşdırılması mümkün olmuş, iqtisadiyyatın idarə edilməsində sahəvi proqramların icrasına üstünlük verilmişdir. İqtisadiyyatın dövlət tənzimlənməsinin incəliklərini dərindən bilən ulu öndərin birbaşa iştirakı ilə 30-a yaxın Dövlət Proqramı qəbul olunmuşdur. Bu isə iqtisadi resursların istifadəsinin səmərəliliyini artırmaqla yanaşı, onun icrasına nəzarəti də asanlaşdırmışdır. İkincisi, iqtisadiyyatın liberallaşdırılması və dövlət müdaxiləsinin minimuma endirilməsi həyata keçirilmişdir. Bu islahatlar sayəsində qiymətlər liberallaşdırılmış, nəticədə inflyasiya tempi arzuolunan səviyyəyə enmişdir. Özəlləşmə prosesinə başlanılmış, bazarda məsuliyyət dövlətdən istehlakçıya keçmişdir. İqtisadiyyatı inkişaf etdirmək potensialına malik sahibkarlıq institutu formalaşdırılmış, torpaq öz sahibinə - kəndlilərə qaytarılmışdır. Azərbaycan MDB-də torpaq islahatlarını uğurla həyata keçirilən ilk respublika olmuşdur.

Ulu öndərin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən biri də əhalinin rifahının yüksəldilməsinin prioritetliyinin təmin edilməsi olmuşdur. Həyata keçirilən tədbirlər sayəsində ölkədə sosial siyasət dərinləşmiş, 1996-2003-cü illərdə əməkhaqqı təxminən 5,6 dəfə, orta aylıq pensiya 73 dəfə artmışdır. Heydər Əliyevin iqtisadi strategiyasının reallaşması sayəsində ölkəmizin ümumi inkişaf tempi də ilbəil artmağa başlamışdır. 1996-2003-cü illərdə ÜDM 90,1%, dövlət büdcəsinin gəlirləri 3,5 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulu 25,2 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə artmışdır. Bu dövr ərzində iqtisadiyyata yönəldilən investisiyaların ümumi həcmi 20 milyard dolları ötmüşdür.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən bu səmərəli iqtisadi siyasətin nəticəsidir ki, Azərbaycan yuxarı gəlirli və yüksək insan inkişafı ölkələr qrupuna daxil olmuşdur. Azərbaycan Cənubi Qafqazda investisiya reytinqi alan ilk və yeganə ölkədir.

əvvəli 4-cü səhifədə

# Milli iqtisadi inkişaf modeli davamlı uğurlara təminat verir



## «Yeni neft strategiyası Azərbaycanın inkişafında parlaq mərhələ açmışdır»

*Rəşid HÜSEYNOV, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İqtisadiyyat və uçot idarəsinin rəis müavini*

- Müasir müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neftin hasilatı, işlənilməsi və nəqli, ən əsası, düzgün, düşünülmüş neft strategiyasının həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaratmışdır.

Ümummilli liderin gərgin əməyi və qətiyyəti sayəsində 1994-cü ildə neft müqavilələrinin imzalanması üzrə beynəlxalq müzakirələrə, danışıqlara başlanmış, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri hazırlanmışdır. 1994-cü il sentyabrın 20-də 8 ölkənin 11 şirkəti ilə «Əsrin müqaviləsi» adlanan beynəlxalq sazişin imzalanması Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməlinin əsasını qoymuşdur. 1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarılmışdır.

Yeni tarixi gerçəklikləri dəqiq əks etdirən neft strategiyası əsasında ulu öndər Heydər Əliyev Azərbaycan neftinin dünya bazarlarına nəqlini son dərəcə vacib sayırdı. Ölkəmizin mənafelərinin qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə ələqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılması başlıca məram idi. Məhz bu məqsədlə «Azəri-Çıraq-Günəşli» yataqlarından hasil olunan neftin Avropaya nəqlini təmin edə biləcək boru xəttinin yaradılması olduqca vacib sayılırdı. Ulu öndər Heydər Əliyev dünyanın nüfuzlu siyasi liderləri, müxtəlif ölkələrin dövlət və hökumət başçıları, işgüzar dairələrin nümayəndələri, neft şirkətlərinin rəhbərləri ilə mütəmadi danışıqlar apararaq Azərbaycan neftinin Türkiyə vasitəsilə Qərbə ixracını nəzərdə tutan strateji marşrutun yaradılması üçün dövlətlərarası sazişin imzalanmasına çalışırdı. Bunun üçün regionda ən təhlükəsiz və uzunömürlü marşrutun - Bakı-Tbilisi-Ceyhanın (BTC) seçilməsi təklif olunurdu. Həmin dövrdə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında rol oynasa da, BTC qədər etibarlı ixrac marşrutu düşünülə bilməzdi. İlkin dövrlərdə BTC-nin reallaşmasını istəməyən qüvvələr çox idi və onlar neftin digər marşrutlarla nəqlinə çalışırdılar. Lakin həmin qüvvələrin müxtəlif təxribatlarına və təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində BTC-nin çəkilməsinə dair sazişin imzalanması mümkün olmuş, boru kəmərinin çəkilişi uğurla başa çatdırılmışdır.

Yeni neft strategiyasının həyata keçirilməsinin nailiyyətlərindən biri də ölkəyə xarici kapital axınının çoxaldılması, Qərbin qabaqcıl texnologiyalarının Azərbaycana gətirilməsidir.

Əlamətdar haldır ki, Heydər Əliyevin «Neft digər istehsal sahələrinin inkişafına təkan verməlidir» ideyasının real nəticəsi öz bəhrələrini göstərir. Bu gün regionda cərəyan edən proseslər bir daha aydın şəkildə nümayiş etdirir ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft strategiyasına söykənən balanslaşdırılmış xarici siyasət Azərbaycanı tarixin ən çətin sınaqlarından çıxarmağa qadir yeganə və alternativsiz siyasi xətdir.

Azərbaycanın milli sərvəti olan neftdən əldə olunan gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması vacib idi. Ölkəmizin sosial-iqtisadi ehtiyaclarını, iqtisadi tərəqqisini və inkişafını da nəzərə alan ulu öndər bu məqsədlə 1999-cu ilin dekabrında Dövlət Neft Fondunun yaradılması ilə bağlı fərman imzaladı. Hazırda fonda toplanan gəlirlərin bir hissəsi iqtisadiyyatın diversifikasiyasına, qeyri-neft sektorunun, insan kapitalının inkişafına yönəldilir. Prezident İlham Əliyev tərəfindən davam etdirilən yeni neft strategiyası iqtisadiyyatın digər sahələrinin inkişafına, regionlarda sosial infrastrukturun, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına öz töhfələrini verməkdədir. Prezident İlham Əliyev qətiyyətlə bildirir ki, biz gələcək inkişafımızı təmin etmək üçün neft vəsaitlərini qeyri-neft iqtisadiyyatının, insan kapitalının inkişafına yönəldirik. Bu siyasət ölkəmizin gələcək tərəqqisini təmin edəcəkdir.



## «Gənclər siyasəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdur»

*Elşən İSMAYILOV, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri*

- Hələ ötən əsrin 70-ci illərində respublikaya rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin həyata keçirməyə başladığı ideya və proqramlar müasir həyatın tərkib hissəsi olaraq yeni imkanlar açmışdır. Gənclər, bədən tərbiyəsi və idman sahəsində ciddi irəliləyişlər təmin olunmuş, müstəqil Azərbaycanın Olimpiya hərəkatına qoşulması prosesi sürətlənmişdir. Xalqının səsinə səs verərək xilaskar kimi özünü yetirən, qardaş qırğınının qarşısını alan, ölkənin parçalanmasına imkan verməyən Heydər Əliyevin 1993-cü ilin 15 sentyabrında gənclərlə görüşməsi onun Azərbaycan gəncliyinin cəmiyyət həyatındakı roluna verdiyi böyük önəmin, rəğbət və qayğının təcəssümü olmuşdur. Sonrakı mərhələdə Azərbaycan gəncliyinin yenidən təşkilatlanması, ölkədə gənclər hərəkatının, gənclik əzmi və enerjisinin vahid mərkəzdən idarə olunması məqsədilə böyük öndər 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalamışdır. Azərbaycan gəncliyinin cəmiyyətin inkişafında və problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında gənclərin iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə qoşulmasına şərait yaratmaq məqsədilə ümummilli lider 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüş, ilk forum 2 fevral 1996-cı ildə yüksək mütəşəkkilliklə baş tutmuşdur. Forumun demokratik ab-havada keçməsini təmin etmiş ulu öndər yekun çıxışında tədbirdə səsləndirilən bütün rəy və təkliflərə münasibətini bildirmiş, gənclərə dəyərli tövsiyələrini vermişdir. Bundan başqa, 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev 2 fevral tarixinin Azərbaycanda «Gənclər günü» kimi qeyd edilməsi haqqında tarixi sərəncam imzalamışdır.

Sonrakı mərhələdə gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi üçün zəruri qanunvericilik bazasının formalaşdırılması təmin edilmişdir. Azərbaycanda gənclər siyasətinin əsas istiqamətləri «Gənclər siyasəti haqqında» Qanunla müəyyənləşdirilmişdir. Sənəddə gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğun təmin edilməsi, gənc ailələrə və gənclər təşkilatlarına dövlət yardımı kimi vacib müddəalar əksini tapmışdır. Bundan başqa, 1996-2002-ci illərdə qəbul olunmuş «Bədən tərbiyəsi və idman haqqında», «Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında», «Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında» qanun, fərman və sərəncamlar, habelə «Gənc ailə» «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında», «Ordudan tərxis olunmuş gənclərin məşğulluğu» dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına imkan yaratmışdır.

Bu siyasəti son 10 ildə uğurla davam etdirən cənab Prezident İlham Əliyevin 2005-ci ildə «Azərbaycan gəncliyi 2005-2009-cu illərdə» və 2011-ci ildə «Azərbaycan gəncliyi 2011-2015-ci illərdə» dövlət proqramlarını imzalaması dövlət başçısının Azərbaycan gəncliyinə münasibətinin bariz təzahürüdür. Sonuncu Dövlət Proqramının başlıca məqsədi gənc mütəxəssislərin işlə təmin olunması və digər sosial-iqtisadi problemlərinin həllinə nail olmaqdır. Proqramda gənclərin məşğulluğu, sosial, mədəni, iqtisadi, intellekbual inkişafı, gənc sahibkarların dəstəklənməsi, gənclər mərkəzlərinin yaradılması, eləcə də Azərbaycanın gənclər təşkilatlarının milli və beynəlxalq layihələrinə dəstək verilməsi məqsədilə Gənclər Fondunun yaradılması öz əksini tapmışdır.

Ölkə başçısının sərəncamı ilə yaradılaraq fəaliyyətə başlamış Gənclər Fondu vasitəsilə elm sahəsində çalışan gənclərin fəaliyyətinin stimullaşdırılması üçün müxtəlif mükafat və təqaüdlərin təsis edilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, proqramda daha bir həssas məsələ - Azərbaycanda gənc ailələrə ipoteka kreditlərinin verilməsi mexanizmlərinin sadələşdirilməsi məsələsi öz əksini tapmışdır.

Ümumilikdə, son 20 ildə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Gənclərimiz demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, elm və digər sahələrdə parlaq nailiyyətlər qazanır, dövlətçilik ənənələrini uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasında yaxından iştirak edirlər.



## «Heydər Əliyev etibarlı sosial müdafiə sisteminin banisidir»

*İsgəndər MUSTAFAYEV, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sektor müdiri*

- Müstəqilliyi Azərbaycan xalqı üçün ən böyük milli sərvət olaraq dəyərləndirən ulu öndər Heydər Əliyev xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra respublikanı genişmiqyaslı problemlərdən, təhlükələrdən, o cümlədən sosial-iqtisadi çətinliklər məngənəsindən xilas etmişdir. Onun səyi nəticəsində sarsılmaz özül üzərində bərqərar edilən möhkəm daxili sabitlik, vətəndaş müharibəsinin qarşısının alınması, xaos və anarxiyaya son qoyulması fonunda qarşıda duran ən mühüm vəzifələrdən biri də xalqın sosial rifahının yüksəldilməsi, məşğulluğun təmin edilməsi, xüsusən də əhalinin aztəminatlı təbəqəsinin maraqlarının qorunması idi. Özü də bütün bunlar ölkə iqtisadiyyatında idarəetmə və istehsal nizamına yeni yanaşma kontekstində reallaşdırılmalı, təsərrüfatın 70 il ərzində formalaşmış idarəçilik metodunu tamam fərqli üsullar əvəz etməli idi. Zamanının lideri olan, hadisələrin inkişaf axarını qabaqlayaraq ona pozitiv təsir göstərən Heydər Əliyev bu missiyanı da uğurla yerinə yetirdi.

Sosialyönümlülük prinsipini daim əsas götürən Heydər Əliyevin bu istiqamətdə dəqiq düşünülmüş, qabaqcıl dünya təcrübəsinə cavab verən, eyni zamanda ölkə və cəmiyyət reallıqlarını nəzərə alan məqsədyönlü siyasəti sosial ziddiyyətlərin aradan qaldırılmasına rəvac verdi. Bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyən edən ümummilli liderin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhəti diqqəti xüsusi cəlb edirdi. Bunlardan birincisi sosial siyasətin dayanıqlı xarakter daşıması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsi idi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni iqtisadi şəraitə uyğun olaraq ölkədə formalaşmaqda olan sosial müdafiə modeli artıq dövlət quruculuğu fəlsəfəsində aparıcı elementlərdən biri, ümumi siyasətin mühüm tərkib hissəsi olmaqla cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunmasına, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılmasına xidmət edirdi. 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunan ilk milli Konstitusiyamız iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edirdi.

Dövlətin diqqət mərkəzində olan sosial siyasəti özündə əks etdirən Konstitusiyanın 16-cı maddəsinin 1-ci bəndində qeyd olunur: «Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır». Bununla, bütün inkişaf etmiş dövlətlərdə olduğu kimi, Azərbaycanda da iqtisadiyyat fərdin və şəxsin maddi, sosial, mənəvi tələbatlarının ödənilməsinə istiqamətləndirilməli idi. Sosial sahədə qanunvericilik aktlarının qabaqcıl tələblərə uyğunlaşdırılması, həmçinin bu sahədə atılan digər addımlar keçid dövründə ölkəmizin sosial transformasiya prosesinin uğurla reallaşması ilə nəticələndi. Bu uğurları şərtləndirən əsas amillərdən biri də Azərbaycanın inkişaf yolunda öz hədəflərini düzgün müəyyən etməsi, bazar münasibətlərinə rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi dəstəkləyən, sosial müstəvidə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən bir dövlət ideyasının mövcudluğu idi. Ulu öndərin rəhbərliyi altında 1993-2003-cü illərdə əhalinin sosial problemləri ön plana çəkilmiş, çoxsaylı yeni iş yerləri yaradılmış, maaşlar, pensiyalar, digər sosial müavinətlər vaxtaşırı artırılmış, əlillərə, müharibə veteranlarına, sənət adamlarına, alimlərə, hətta tələbələrə xüsusi prezident təqaüdləri təyin edilmişdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ulu öndərin respublikaya rəhbərlik etdiyi 10 il ərzində ölkədə sosial sahədə inkişafın təmin olunmasına xidmət edən 60-dan artıq sənəd imzalanmışdır. Pensiya və müavinətlərin artırılması, əlillər və şəhid ailələri üçün mənzil tikintisi, əlillərin minik avtomobilləri, müxtəlif reabilitasiya vasitələri ilə təmin olunması, onların tibbi-sosial reabilitasiyası, bərpa-müalicə və protez xidmətinin təkmilləşdirilməsi, bu sahədə xidmət şəbəkəsinin bütün bölgələr üzrə genişləndirilməsi, aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi, işçi hüquqlarının təkmilləşdirilməsi və sair istiqamətlərdə tədbirlər məhz ulu öndərin təşəbbüsü və xeyir-duası ilə başlanaraq ənənəvi xarakter almışdır.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda əhalinin məşğulluq səviyyəsi davamlı olaraq yüksəlməyə başlamış, sosial müdafiə sahələrində konkret və məqsədyönlü işlərin görülməsini nəzərdə tutan və çevik xarakter alan sosial siyasət kursunun etibarlı əsası qoyulmuşdur. Bu siyasət iqtisadi tərəqqidən irəli gələn imkanların, ilk növbədə, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi, daim güclənən iqtisadi təməl üzərində inkişaf etdirilməsi prinsipinə söykənir.

2003-cü ildən etibarən ölkəmiz üçün milli inkişafın zamanın çağırışlarına uyğun yeni mərhələsi başlanmış, Azərbaycan öz tərəqqisinin daha sürətli mərhələsinə adlamış, iqtisadi strukturun intensiv formalaşması prosesinə start verilmişdir. Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət də məhz Azərbaycanın iqtisadi-sosial inkişafının təminatına, əhalinin sosial müdafiəsi sahəsində tarixi nailiyyətlərin əldə edilməsinə gətirib çıxarmışdır.



## «Davamlı inkişafın əsası ötən əsrin 70-80-cı illərində qoyulmuşdur»

*Hidayət CƏFƏROV, Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor*

- Müstəqil Azərbaycanın son 22 ildə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar məhz ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev respublikanın keçmiş Sovet İttifaqı miqyasında geridə qalmış respublikalardan biri kimi tanınması ilə barışmayaraq, mövcud vəziyyətin kökündən dəyişdirilməsi üçün qətiyyətli addımlar atmış, mövcud resursları səfərbər etməklə tərəqqi və inkişaf prosesindəki maneələrin aradan qaldırılmasına nail olmuşdur.

Böyük strateq yaxşı başa düşürdü ki, respublikanın iqtisadi cəhətdən möhkəmlənməsi, iqtisadi azadlığını təmin etməsi üçün SSRİ-nin strateji əhəmiyyət kəsb edən istehsal və sənaye müəssisələri məhz Azərbaycanda inşa olunmalıdır. O illərdə Heydər Əliyevin təkidi və qətiyyəti qarşısında keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neftkimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, tekstil, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etmişdir. 70-80-cı illərdə Bakıda, Sumqayıtda, Gəncədə, Lənkəranda, Naxçıvanda və digər bölgələrdə inşa olunan iri müəssisələr bugünün özündə də iqtisadiyyatın güclü emal və sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Bu baxımdan, ulu öndərin Bakı Məişət Kondisionerləri Zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır. 1970-ci illərin əvvəllərində mərkəzi rəhbərlik bu zavodun Zaporojye şəhərində inşa olunmasına qərar versə də, şəxsi nüfuzundan istifadə edən Heydər Əliyev Brejnevlə görüşərək həmin müəssisənin məhz Bakıda tikilməsinin vacibliyini konkret dəlillərlə əsaslandıraraq son nəticədə istəyinə nail oldu. 1975-ci ilin dekabrında Bakı Məişət Kondisionerləri Zavodunun işə düşməsi məhz dahi öndərin böyük vətənpərvərliklə həyata keçirdiyi əzmkar fəaliyyətinin məntiqi nəticəsi idi. Eyni zamanda, bu gün neft sənayemizin inkişafında mühüm rolu olan Bakı Dərin Özüllər Zavodunun inşası üçün 70-ci illərdə SSRİ büdcəsindən 400 milyon manat vəsaitin ayrılması da məhz ulu öndərin tarixi xidmətlərindən biri kimi xatırlanır.

Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. O zaman respublikanın neft maşınqayırması keçmiş ittifaqın neftmədən avadanlığının üçdəbirindən çoxunu, neftçıxarma texnikasının isə 70%-ni verirdi. Həmin illərdə ittifaq miqyasında yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Azərbaycanın payına düşürdü. Heydər Əliyevin təşəbbüsü və inadkarlığı sayəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradıldı.

Ulu öndərin respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda istehsalın ümumi həcmi 2,7 dəfə artmış, respublikamız milli gəlirin səviyyəsinə görə ittifaq miqyasında ön mövqelərə çıxmış, əmək məhsuldarlığı 1,8 dəfə çoxalmışdı. Böyük öndər Heydər Əliyevin 1982-ci ildən sonra siyasi fəaliyyəti Kremlə bağlansa da, müdrik rəhbər xalqına və dövlətinə mümkün dərəcədə yüksək diqqət və qayğı ilə yanaşmışdır. Lakin 1980-ci illərin ortaları, 90-cı illərin əvvəllərində keçmiş SSRİ-də yaşanan iqtisadi böhran respublikamızdan da yan keçməmiş, milli iqtisadiyyatda durğunluq və geriləmə meyilləri müşahidə olunmuşdu. Xüsusən də 1990-1993-cü illərdə Azərbaycan iqtisadiyyatında tənəzzül, böhranlar və əksproseslərin genişlənməsi idarəetmədə səriştəsiz və bacarıqsız adamlara geniş meydan verilməsi ilə xarakterizə olunur. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda respublika rəhbərliyinə qayıdışı xalqı və dövləti böyük faciələrdən hifz etməklə yanaşı, iqtisadiyyatdakı dərin böhran və tənəzzül prosesinin də qarşısını almışdır. Bu mənada, ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycanın özünəməxsus sosial-iqtisadi inkişaf modelinin banisi kimi böyük ehtiramla xatırlanır.

**«Dəyirmi masa»dan materialları hazırladılar: Elbrus CƏFƏRLİ, Samir MUSTAFAYEV**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## *Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi*

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən sayımızda**

**Sətir 1.8 «Kapitallaaşdırma üçün aktivlər»** «dövr ərzində daxil olmuşdur» sütununda: 08 №-li hesabın debet dövriyyəsi üzrə illik yekun məbləğ, yəni hesabat ili ərzində tikintinin təsərrüfat və ya podrat üsulu ilə aparılmasından asılı olmayaraq əsas vəsait obyektlərinin inşası, həmçinin quraşdırılması tələb olunmayan ayrı-ayrı əsas vəsait obyektlərinin, quraşdırılası avadanlıqların, torpaq sahələrinin, təbiətdən istifadə obyektlərinin, qeyri-maddi aktivlərin, yaşlı heyvanların və digər uzunmüddətli aktivlərin əldə edilməsi üzrə çəkilən kapitallaşdırma xərclərinin yekun dəyəri əks etdirilir. Çəkilən kapitallaşdırma xərcləri dedikdə sadalanan uzunmüddətli aktivlərin alınması, daşınması, quraşdırılması və istismar vəziyyətinə gətirilməsi üçün çəkilən məsrəflər nəzərdə tutulur. Məsələn, DB08 - KR60, DB08 - KR76, DB08 - KR75, DB08 - KR70, DB08 - KR69, DB08 - KR10 ikili yazılışları üzrə məbləğlər nəzərə alınmamalıdır.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** Təqdim edilmişdir: boş saxlanılır. *«Təqdim edilmişdir»* anlayışının «mülkiyyət hüququ dəyişmişdir» anlamına gəldiyini və 08№-li hesabda təsərrüfat daxilində gələcəkdə istismarı nəzərdə tutulan uzunmüddətli aktivlərin uçota alındığını nəzərə alsaq, Əlavənin bu xanasının boş saxlanılması qənaətinə gəlmək olar. Amma bəzi (çox cüzi) hallarda satılan kapital qoyuluşları da mövcud olur. Məsələn, müəssisənin təsərrüfat daxilində gələcəkdə istismar edilməsi məqsədilə əldə olunmuş əsas vəsait barədə hələ istismara verilməyənədək (01№-li hesabda uçota alınmayanadək) sonradan satılması qərarı verilmişdirsə, həmin aktivin əldə edilməsi üzrə silinən yekun məbləğ (DB48 - KR08 ikili yazılışı) Əlavənin «təqdim edilmişdir» xanasında əks etdirilə bilər. *Silinmişdir:* Bu xanada 08 №-li hesabın kredit dövriyyəsi üzrə illik yekun məbləğ, yəni inşası başa çatdırılan, həmçinin digər müəssisə və fiziki şəxslərdən pulla alınan əsas vəsait obyektlərinin istismara qəbul edilən dəyəri, qeyri-maddi aktivlərdən istifadə hüququ yarandıqdan sonra onların əldə edilməsi üzrə məsrəflərin silinən yekun dəyəri əks etdirilir. Silinən məbləğlər 08 №-li «Kapital qoyuluşları» hesabının kreditindən 01 №-li «Əsas vəsaitlər» və 04 №-li «Qeyri-maddi aktivlər» hesabının debetinə uçota alınır. Lakin Əlavənin bu xanasında əks etdirilməli olan 08 №-li hesabın kredit dövriyyəsi üzrə illik yekun məbləğdən həmin hesabın subhesablarının qarşılıqlı ikili yazılışı nəticəsində yaranan məbləğləri çıxılmalıdır. Məsələn, quraşdırılmağa verilmiş avadanlıqların dəyəri 08-10 №-li «Quraşdırılası avadanlıqlar» subhesabının kreditindən 08-3 №-li «Əsas vəsait obyektlərinin inşası» subhesabının debetinə silinir. Bu ikili yazılış üzrə dövriyyələr Əlavədə nəzərə alınmamalıdır. *Ləğv edilmişdir:* boş saxlanılır.

***Misal.*** Kapital qoyuluşları üzrə aşağıdakı ikili yazılışlar verilmişdir *(Bax: cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(Bax: cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(Bax: cədvəl 3)*.

Cədvəldən göründüyü kimi, 08 №-li hesabın debet dövriyyəsi üzrə yekun məbləğ 217400 manat, kredit dövriyyəsi üzrə yekun məbləğ 201400 manat olmasına baxmayaraq, Əlavədə müvafiq olaraq 211400 manat və 195400 manat (6000 manat az) göstərilib. Buna səbəb DB08-3 - KR08-10 ikili yazılışı üzrə 6000 manat məbləğin 08№-li hesab daxilindəki subhesabların qarşılıqlı müxabirləşməsi nəticəsində yaranmasıdır. Çünki 6000 manat dəyərində quraşdırılan avadanlıq əvvəlki hesabat dövründə kapitallaşdırma üçün daxil olan aktiv kimi əvvəlki ilin Əlavəsində əks etdirilmişdir.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Quraşdırılması tələb olunmayan avadanlıq alınmışdır | 08-4 | 60 | 2000 |
| Həmin avadanlığın istismar yerinə daşınması üçün kənar təşkilata çəkilən xərclər | 08-4 | 60 | 300 |
| Həmin avadanlıq istismara qəbul edilmişdir | 01 | 08-4 | 2300 |
| Təsərrüfat üsulu ilə istehsalat binasının inşasında tikinti materialları istifadə olunub | 08-3 | 10 | 150000 |
| Təsərrüfat üsulu ilə istehsalat binasının inşasında işləyən işçilərə əməkhaqqı hesablanıb | 08-3 | 70 | 30000 |
| Təsərrüfat üsulu ilə istehsalat binasının inşasında işləyən işçilərin əməkhaqqı fondu üzrə məcburi sosial sığorta haqqı hesablanıb | 08-3 | 69 | 6600 |
| Təsərrüfat üsulu ilə tikilən istehsalat binasının aparıcı konstruksiyalarına bərkidilməsi nəzərdə tutulan yeni quraşdırılası avadanlıq alınıb | 08-10 | 60 | 4000 |
| Əvvəlki dövrlərdə alınaraq anbarda saxlanılan quraşdırılası avadanlığın quraşdırılacaq tikinti yerinə daşınması və quraşdırılması üçün kənar təşkilata çəkilən xərclər | 08-3 | 60 | 500 |
| Tikilinin aparıcı konstruksiyasına tam bərkidilən həmin quraşdırılası avadanlığın alış dəyəri silinir | 08-3 | 08-10 | 6000 |
| İstehsalat binasının inşası başa çatdığına görə istismar edilməsi üçün təhvil alınıb (150000 + 30000 + 6600 + 500 + 6000) | 01 | 08-3 | 193100 |
| Podrat üsulu ilə ofis binasının bir hissəsi tikilmiş və tikilən hissə üzrə podratçı təşkilat tərəfindən hesab (forma 2) təqdim olunub (binanın inşaası davam edir) | 08-3 | 60 | 18000 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 08-3 | Əsas vəsait obyektlərinin inşası | | | 211100 | 193100 | 18000 | |
| 08-4 | Ayrı-ayrı əsas vəsait obyektlərinin əldə edilməsi | | | 2300 | 2300 | | |
| 08-10 | Quraşdırılası avadanlıqlar | 8000 | | 4000 | 6000 | 6000 | |
| | Cəmi pul hesabları üzrə | 8000 | | 217400 | 201400 | 24000 | |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|---|
| 1.8 Kapitallaşdırma üçün aktivlər | 211400 | Təqdim edilmişdir: | | 24000 |
| | | Silinmişdir: | 195400 | |
| | | Ləğv edilmişdir: | | |

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

15 may - «(5)» və «6».
20 may - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayınınn 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.




# İnteraktiv vergi xidmətləri

*Təcrübə göstərir ki, elektron xidmətlərdən daha səmərəli istifadə etmək üçün vergi ödəyicilərinin, ümumiyyətlə vətəndaşların müntəzəm məlumatlandırılmasına ehtiyac var. Bunu nəzərə alaraq, Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlər barədə təlimat səciyyəli yazıları diqqətinizə çatdırmağa davam edirik.*

### Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması

Bu xidmət vergi orqanları tərəfindən vergi ödəyicilərinin nəzarət-kassa aparatlarının (NKA) elektron formada qeydiyyata alınması və qeydiyyatdan çıxarılmasını əhatə edir. NKA-nın qeydiyyata alınması ərizəsi işlənildikdə vergi ödəyicisinin nəzarət-kassa aparatı qeydiyyata alınır və bu barədə ona bildiriş göndərilir. NKA-nın qeydiyyatdan çıxma ərizəsi işlənildikdə isə vergi ödəyicisinə üç gün ərzində akt tərtib ediləcəyi və NKA-nın qeydiyyatdan çıxarılacağı barədə bildiriş göndərilir. Akt tərtib edildikdən sonra NKA qeydiyyatdan çıxarılır.

Bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış şəxslər istifadə edə bilərlər. Xidmət ödənişsizdir və www.e-taxes.gov.az, www.e-gov.az ünvanında təqdim edilir.

Elektron xidmətin göstərilməsi üçün NKA-nın qeydiyyata alınması və qeydiyyatdan çıxarılması barədə ərizələr tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizələrdə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi və ya Servis Texniki Xidmət Mərkəzi tərəfindən sistemə daxil edilir.

Ərizə vergi ödəyicisi tərəfindən təqdim edildikdə ona elektron formada aşağıdakı sənədlər əlavə olunur:

- STXM-in NKA-nın quraşdırılması və ya qeydiyyatdan çıxarılması barədə aktı;
- ərizənin təqdim olunma tarixinə NKA-nın fiskal yaddaşının göstəricisini əks etdirən çek;
- nəzarət-kassa aparatında quraşdırılmış elektron məsafədənöturmə qurğusu və ya elektron nəzarət lenti barədə STXM-in aktı.
- Ərizə STXM tərəfindən vergi orqanına elektron formada gondərildikdə isə yuxarıda göstərilən sənədlərə vergi ödəyicisi ilə STXM arasında bağlanmış müqavilə əlavə olunur.

Bu xidmətdən istifadə üçün istifadəçilərin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda, istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

Nəzarət-kassa aparatının qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn Kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə *«Yeni müraciət»* düyməsi sıxılır və açılan pəncərədə:

«Kimə» siyahısından - Vergilər Nazirliyi;

«Müraciətin növü» siyahısından - ərizə;

«Sənədin növü» siyahısından - NKA-nın qeydiyyata alınması və NKA-nın qeydiyyatdan çıxarılması ərizələrindən biri seçilir və *«Qəbul»* düyməsi sıxılır.



Əgər NKA-nın qeydiyyata alınması ərizəsi seçilmişdirsə, açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- obyekt kodu seçilir;
- NKA-nın markası seçilir;
- zavod nömrəsi daxil edilir;
- sayğacın ilk göstəricisi daxil edilir;
- qeydiyyat tarixi daxil edilir;
- STXM aktının tarixi daxil edilir;
- elektron qurğunun tipi seçilir (əgər quraşdırılıbsa);
- elektron qurğunun nömrəsi daxil edilir (əgər quraşdırılıbsa);
- fiskal yaddaşın göstəricisi daxil edilir;
- quraşdırılma aktının tarixi daxil edilir;
- STXM-in NKA quraşdırma aktı elektron formada əlavə olunur;
- NKA-nın fiskal yaddaş çeki elektron formada əlavə olunur;
- STXM-in EMQ quraşdırma aktı elektron formada əlavə olunur (əgər quraşdırılıbsa);
- STXM ilə müqavilə elektron formada əlavə olunur (ərizə STXM tərəfindən təqdim edildiyi təqdirdə).

Əgər NKA-nın qeydiyyatdan çıxarılması ərizəsi seçilmişdirsə, açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- obyekt kodu seçilir;
- NKA-nın markası seçilir;
- zavod nömrəsi daxil edilir;
- qeydiyyatdan çıxma tarixi daxil edilir;
- STXM-in plombun zədələnməməsi aktı elektron formada əlavə olunur;
- NKA-nın fiskal yaddaş çeki elektron formada əlavə olunur;
- STXM-in EMQ aktı elektron formada əlavə olunur (əgər quraşdırılıbsa).

Sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir.

İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün: *«Qəbul»* düyməsini sıxır. Əks halda, imtina etmək üçün *«İmtina»* düyməsi icra edilir. Təsdiqdən sonra vergi ödəyicisinin elektron ünvanına «NKA-nın qeydiyyata alınması» və ya «Qeydiyyatdan çıxarılması» barədə bildiriş göndərilir.

Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16-rəqəmli qeydiyyat nömrəsi verilir.

Sistem tərəfindən NKA-nın quraşdırıldığı təsərrufat subyekti üzrə vergi ödəyicisinin ucotda olub olmaması, NKA-nın markasının müvafiq dövlət reyestrinə daxil edilib-edilməməsi, həmin NKA-nın digər obyektlərdə qeydiyyatda olub-olmaması, vergi odəyicisi huquqi şəxs olduqda məlumat bazasında onun rəhbəri barədə məlumatın olub-olmaması yoxlanılır. Əgər yuxarıda göstərilən şərtlərdən biri düz olmazsa, qeydiyyat ərizəsinin vergi orqanına göndərilməsinə yol verilmir.

Büdcəyə borcu olan vergi ödəyicisinin təsərrüfat subyektində quraşdırılmış NKA-nın qeydiyyatdan çıxarılmasına icazə verilmir.

Ərizənin gostəriciləri ilə ona əlavə olunmuş PDF formatda sənədlərdə kənarlaşmalar aşkar edildikdə NKA qeydiyyata alınmır və ya qeydiyyatdan çıxarılmır.

İmtinaya əsas olmadıqda NKA qeydiyyata alınır və ya qeydiyyatdan çıxarılır.

Elektron xidmətin gostərilməsi zamanı aparılan proseslərə Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.

**AYTƏN**

# Elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı növbəti seminar keçirilmişdir

*Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsinin dəvəti ilə Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəisi Mətin Kərimli və Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Real sektorun monitorinqi şöbəsinin rəisi Zaur Quliyev Londonda olmuşlar. Səfərin məqsədi elektron ticarətin vergiyə cəlb edilməsi məsələləri ilə bağlı təcrübə mübadiləsində iştirak etmək idi.*

Elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsi həmin əməliyyatların vergiyə cəlb edilməsi məsələlərini çətinləşdirir. Elektron ticarət əməliyyatları aparan şəxslərin fərqli ölkələrin rezidentləri olması, informasiya sistemlərinin isə digər ölkələrdə yerləşməsi malların təqdim olunduğu yerin, vergi ödəyicisinin və vergi məbləğinin müəyyən edilməsini mürəkkəbləşdirir.

Britaniya vergi administrasiyası e-ticarətin vergiyə cəlb edilməsi ilə bağlı böyük təcrübəyə malikdir. Səfər zamanı edilən təqdimatlarda e-ticarətin vergiyə cəlb edilməsi ilə bağlı qanunvericilik, vergi nəzarəti və inzibatçılıq məsələləri əhatə olunmuşdur.

Xatırladaq ki, hazırda qanunsuz e-ticarətlə məşğul olan şəxslərin müəyyən olunması üçün Britaniya vergi administrasiyasında müxtəlif proqram təminatlarından, əsasən də «Xenon» və «ECEyes»dən istifadə olunur. Müzakirələr zamanı «Xenon» proqramının istifadə xüsusiyyətləri və əldə olunma şərtləri haqqında da təqdimat edilmişdir.

# AB vergidən yayınan əcnəbilərə qarşı qaydaları sərtləşdirir

Avropada hökm sürən iqtisadi böhran şəraitində vergidən yayınan insanlara qarşı mübarizəni gücləndirən ölkələrin göstərdikləri təzyiq Avstriya və Lüksemburqda bank sirlərinin açıqlanması məsələsini gündəliyə gətirmişdir. Lüksemburq maliyyə naziri Lyuk Fridenin bu sahədə xarici ölkələrin vergi qurumları ilə sıx əməkdaşlıqda çalışacaqlarını bəyan etməsindən sonra müzakirələr Avstriyaya da keçmişdi. Avropa Birliyinin bank hesabları barədə məlumatı gizli saxlayan iki ölkəsindən biri - Lüksemburqun bank müştərilərinin hesabları haqqında məlumatları açıqlamaq istiqamətində addım atacağını bəyan etməsindən sonra Avstriyanın da buna bənzər hərəkət edəcəyi gözlənilir. Baş nazir Verner Fayman Avstriyanın vergidən yayındırılan pulların gizlədildiyi bir ölkə olmasının qəbul edilməyəcəyini və zəruri olduqda əcnəbilərin bank hesabları barədə məlumatların açıqlanacağını bildirmişdir. Bundan sonra Avstriyada bank sirlərinin yalnız ölkə vətəndaşları üçün qüvvədə saxlanılacağı gözlənilir.

Qeyd edək ki, banklardakı hesablar barədə məlumatların Avropa Birliyinə üzv olan digər ölkələrlə mübadilə edilmədiyi Avstriya və Lüksemburqda depozit hesabları 35% həcmində vergiyə cəlb olunur və hesab sahiblərinin adları anonim saxlanılır. Avropa Birliyinin 2006-cı ildə qəbul etdiyi qaydalar əcnəbi sərmayəçilərin banklardakı pulları ilə bağlı digər ölkələr tərəfindən vergi bəyannamələrinin tələb olunmasına imkan yaradır.

Avropa Birliyi xaricində qeydiyyatdankənar pulların ən çox götürüldüyü Avropa ölkəsi isə İsveçrədir. Bu yaxınlarda Fransada büdcə üzrə nazir Jerom Kauzakın İsveçrədə hesablarının olduğu ortaya çıxandan sonra yaranan böhranlı vəziyyət nəticəsində nazir öz vəzifəsini tərk etməli olmuşdu...



# Məhkəmə mübahisələrinin aktual məsələləri müzakirə edilmişdir

Aprelin 22-dən 24-dək Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəvəti ilə Almaniyada vergi hüququ sahəsində tanınmış mütəxəssis, Berlin-Brandenburq Maliyyə (Vergi) Məhkəməsinin sədri, prof. Dr. Klaus Lambrext inzibati-iqtisadi məhkəmələrin hakimləri ilə seminarların keçirilməsi üçün Bakı şəhərində olmuşdur.



Prof. Dr. Lambrexti ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi sistemində çalışan hüquqşünasların iştirakı ilə Vergilər Nazirliyinin inzibati binasında «Azərbaycanda vergi qanunvericiliyi ilə bağlı məhkəmə mübahisələri üzrə aktual məsələlərin müzakirəsi (vergi mübahisələri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla)» mövzusunda «dəyirmi masa» keçirilmişdir.

Görüş zamanı Prof. Dr. Lambrext ilk öncə Almaniyada mövcud olan «vergi məsləhətçisi» institutu barədə tədbir iştirakçılarına məlumat vermişdir. O, qeyd etmişdir ki, Almaniyada vergi ödəyicilərinin əksəriyyəti özlərinin vergi məsələlərini həll etmələri üçün vergi məsləhətçilərinin xidmətlərindən istifadə edir. Ölkədə vergi məsləhətçilərinin fəaliyyəti «Vergi məsləhətçisi haqqında» Qanun ilə tənzimlənir. Qanunvericiliklə nəzərdə tutulmuş tələblərə uyğun olan şəxslər Vergi Məsləhətçiləri Kollegiyasına daxil olduqdan və müvafiq lisenziya aldıqdan sonra fəaliyyətə başlayırlar. Onlar, həmçinin, peşə sığortası müqaviləsi (göstərdikləri xidmətlərə görə vergi ödəyicilərinə zərər vuracaqları halda həmin zərərin ödənilməsi üçün) bağlamalıdırlar. Bununla yanaşı, Almaniyada vergi mübahisələrinə ixtisaslaşdırılmış Maliyyə (Vergi) məhkəmələrində baxılır.

Görüş zamanı elektron ticarətdən əldə olunan gəlirlərin hansı dövlətdə vergiyə necə cəlb edilməli olması, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin partnyorluq çərçivəsində qurulması, hesablanmış vergilərin inzibati qaydada məhkəmədə mübahisələndirilməsi zamanı, paralel olaraq, həmin faktla əlaqədar cinayət təqibinin aparılması imkanı, əmək münasibətlərində vergi nəzarətinin həyata keçirilməsi qaydaları, əmək münasibətləri rəsmiləşdirilməyən iş yerlərinin müəyyən edilməsi məsələləri ilə bağlı tədbir iştirakçıları tərəfindən beynəlxalq ekspertə suallar ünvanlanmış və həmin məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

# Vergi idarəetməsində səmərəlilik

Türkiyənin paytaxtı Ankara şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi idarəetməsində səmərəlilik: təşkilat, idarəetmə və texnologiyalar» mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi dövlət ehtiyatlarından ən yaxşı şəkildə istifadə edərək xərcləri azaltmaq və əməletməni artırmaq üçün müasir texnologiyalardan istifadə etmək sahəsində vergi administrasiyalarında mövcud olan praktikalar və ən mühüm prinsiplər ilə tanışlıq olmuşdur. Seminarda İƏİT ölkələrində vergi administrasiyalarının modernləşmə prosesləri, şəffaflığın artırılması yolları və ictimai etimadın yaradılması, vergi administrasiyaları üçün daha effektiv əməletmənin həyata keçirilməsi üçün xərc tələb edən fəaliyyətlərdən daha sistemli, xidmət əsaslı platformaya keçilməsi yolları təhlil olunmuşdur. Vergi administrasiyalarında idarəetmə və təşkilati işlər də daxil olmaqla əməletmə riskinin idarə edilməsinin ümumi prinsipləri və praktikalar, vergi ödəyicisinin davranışının başa düşülməsi və ona təsir strategiyalarının inkişaf etdirilməsi, əməletmə səviyyəsinin artırılması, əməletmənin ölçülməsi əsas müzakirə mövzuları olmuşdur.

Seminar zamanı Vergilər Nazirliyinin idarəetmə, texnologiyalar, təşkilat sahəsində əldə etdiyi nailiyyətlər barədə məlumat verilmiş, ölkəmizin təcrübəsi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Seminarda Qubadlı Rayon Vergilər Şöbəsinin əməkdaşı Tural Babayev iştirak etmişdir.

# ABŞ-da internet vasitəsilə satışa vergi qoymaq planlaşdırılır

*İnternet-mağazalara vergi tətbiq olunması ilə bağlı qanun layihəsi səsə qoyulmaq üçün ölkə Senatında kifayət qədər səs toplamışdır. Əgər bu sənəd qanuna kimi qəbul edilsə, ildə 12 mlrd. dollar əlavə vergi yığmağa şərait yaradacaq.*

Hazırda qüvvədə olan qanunlar 1990-cı illərdə qəbul edilmişdir və hər hansı ştatın ərazisində internet vasitəsilə satış müəssisəsinin nümayəndəliyi yoxdursa, həmin ştatın xəzinəsinə satışdan vergi ödənilməsinə imkan vermir: bu verginin dərəcəsi isə 3%-dən 8%-dəkdir.

Hazırda müzakirə olunan qanun layihəsini ənənəvi satış şəbəkələri müdafiə edirlər. Oflayn riteylerlərin qənaətinə görə, mövcud sistem ədalətsizdir. Elektron ticarət şirkətlərinin nümayəndələri isə belə hesab edirlər ki, indiki halda bu sahəyə verginin tətbiq olunması kiçik biznesə ağır zərbə vura bilər: internet əksər hallarda kiçik biznes üçün əsas satış kanallarından birini təşkil edir. Qanun layihəsinin konqressin aşağı palatasından keçmək ehtimalı da azdır, çünki burada səslərin çoxu Respublikaçılar partiyasına məxsusdur. Onların mövqeyi belədir ki, internet sektoruna tətbiq olunan vergi yükünü artırmağa lüzum yoxdur, bu - sektorun inkişafını ləngidə bilər.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Qax rayonunda kənd. Həmçinin türk tayfalarından biri; 2.Bir çox ərəb ölkələrində pul vahidi. Qədim çəki ölçü vahidi; 3.Orta qulaq nayihəsinin iltihabı; 5.İnam, gözlənti, etimad; 6.Napoleonun birinci həyat yoldaşı Jozefinanın qızlıq familiyası; 7.İngilis fizikinin soyadı (1824-1907). Termodinamikanın əsaslarını qoyanlardan biridir. 1848-ci ildə mütləq temperatur şkalasını təklif etmiş, 1890-1895-ci illərdə isə London Kral Cəmiyyətinin prezidenti olmuşdur; 8.İçi kremli, üzərində isə şokoladlı qlazur Fransa deserti; 14.Daim rast gəlinən, sistemə salınmış, insanlarda təəccüb doğurmayan, təkrarlanan, rastlaşanda maraq doğurmayan, heç nə ilə seçilməyən hal, vəziyyət, insan, situasiya və s.; 15.Buxar *(rusca)*; 17.Bakının Suraxanı rayonunda qəsəbə; 19.Müəllifi məlum olmayan məktub, mahnı və s.; 20.Poçt ödəniş nişanı; 21.Pyotr Çaykovskinin «Qu gölü»ndən personaj *(şahzadə)*; 25.Gürcüstan və Rusiya ərazisindən keçərək Xəzər dənizinə tökülən çay; 26.İsraildə İordan çayının qərb sahilində yerləşən qədim yaşayış məskəni; 27.Sülhün qorunmasını və azadlıqların müdafiəsini siyasi həmrəylik yolu ilə təmin edən və üzvlərinə qarşı yönəlmiş istənilən aqressiya formalarının dəf edilməsini, lazım gəldikdə isə hərbi gücdən istifadə edilməsini nəzərdə tutan müstəqil dövlətlər alyansı.

**Soldan sağa:** 1.ABŞ-da çay; 4.Qədəhvari quruluşa malik qədim zərb aləti. Orta əsrlərdə Azərbaycanda geniş yayılmış bu alət cənub bölgələri üçün daha xarakterikdir; 9.«General Motors» şirkəti tərəfindən istehsal olunan minik avtomobili; 10.Ukraynada çay; 11.İnsanın şəxsiyyəti, həyat tərzi, fikirləri və hissləri barədə məlumatları özündə birləşdirən enerji sahəsi; 12.Saçların qurudulması üçün məişət cihazı; 13.İrlandiyada şəhər; 16.Xovsuz xalçalar qrupuna aid palaz; 18.Məşhur aktyorun epizodik rolu; 22.İranda şəhər; 23.Slavyanlarda monarx titulu; 24.Təsviri incəsənətdə gələcək əsərin ilkin cizgiləri; 28.İraqda Kufədən on kilometr qərb tərəfdə şəhər, şiələrin ziyarət yeri; 29.Düzgün dördbucaqlı; 30.İçində od qalayıb üstündə şişlik ət, toyuq, balıq və s. bişirmək üçün istifadə edilən xüsusi ocaq növü; 31.Rusiya Federasiyasının paytaxtı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Kampus; 2.Çanza; 3.Rele; 5.Leço; 6.Bolnisi; 7.Saatlı; 8.Ünvan; 14.Pan; 15.Xaş; 17.Fidelio; 19.Alaçıq; 20.Yaşma; 21.Vauçer; 25.Eyvon; 26.Himn; 27.Esse.

**Soldan sağa:**
1.Köçəri; 4.Qlobus; 9.Monblan; 10.Çalma; 11.Umay; 12.Şah; 13.Sikl; 16.İflas; 18.Basin; 22.Lada; 23.YAP; 24.Beta; 28.Çelsi; 29.Moskviç; 30.Qrodno; 31.Meandr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Beynəlxalq velosiped turuna həsr olunmuş mətbuat konfransı



Aprelin 29-da «Tour D`Azerbaidjan» beynəlxalq velosiped turunun başlanması ilə əlaqədar mətbuat konfransı keçirilmişdir. Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, təşkilat komitəsinin sədri Sahib Ələkbərov «Tour D`Azerbaidjan» beynəlxalq velosiped turu, onun marşrutları, habelə tura hazırlıq işlərinin mövcud vəziyyəti barədə media nümayəndələrini məlumatlandırmışdır.

Qeyd edilmişdir ki, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq velosiped turu 5 mərhələdən ibarət olmaqla 2013-ci il may ayının 1-dən 5-dək Bakı şəhəri, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazisində keçiriləcəkdir.

Veloturda 24 ölkədən, o cümlədən ABŞ, İtaliya, Almaniya, Türkiyə, Rusiya, Avstriya, Niderland, Norveç, İsveçrə, Portuqaliya, Belçika, Danimarka, Avstraliya, Əlcəzair, Latviya, Ukrayna, Belarus, Qazaxıstan və s. 500 nəfərdən çox iştirakçının və fəxri qonaqların, həmçinin Beynəlxalq Velosipedçilər İttifaqı rəhbərliyinin, dünyanın tanınmış velosipedçilərinin, eləcə də XXX London Yay Olimpiadasının qalibi, Qazaxıstan velosipedçisi Aleksandr Vinokurovun iştirakı gözlənilir.

Veloturda ümumilikdə 25 komanda çıxış edəcək ki, bunların da 17-si kontinental, 6-sı milli komandalardır. Hər komandanın tərkibində 6 velosipedçi yarışacaqdır.

Veloturun təşkilat komitəsinin üzvü Albrext Röder qeyd etmişdir ki, turda iştirak edən komandalardan 20-si təxminən eyni qüvvəyə malikdir ki, bu da yarışın ciddi rəqabət şəraitində keçəcəyini söyləməyə əsas verir. Bu il Minskdə keçirilmiş trek yarışları üzrə dünya çempionatının qalibləri olan 2 velosipedçi də Avstraliya komandasının tərkibində «Tour d`Azerbaidjan»a qatılacaqdır. Turda iştirak edən velosipedçilər arasında «Tour d'France» yarışlarının mükafatçıları da olacaq.

A.Röder «Baku Synergy Cycling Project» komandasının əsas rəqibləri kimi «Rabobank Development Team» (Hollandiya), «Leopard - Trek Kontinental Team» (Lüksemburq) və «Kontinental Team Astana» (Qazaxıstan) komandalarını gördüklərini bildirmişdir.

S.Ələkbərov tur çərçivəsində hazırlıq işlərinin artıq yekunlaşdığını bildirmişdir. Qeyd edilmişdir ki, turun 1-ci və 5-ci mərhələləri çərçivəsində Bakı şəhərində bir sıra prospekt və yollarda nəqliyyatın hərəkəti dayandırılacaq və ya məhdudlaşdırılacaqdır. Turun ilk günü, may ayının 1-də saat 10.30-dan 14.00-dək Heydər Əliyev prospektinin nəqliyyatın hərəkəti üçün bağlanacağı gözlənilir.

S.Ələkbərov vurğulamışdır ki, böyük velosiped yarışları zamanı nəqliyyatın hərəkətinin məhdudlaşdırılması dünyanın bütün ölkələrində tətbiq olunur. Məsələn, Fransada velosiped yarışları zamanı Parisin mərkəzi yolu olan «Yelisey çölləri», İstanbulda şəhərin Asiya və Avropa hissəsini bir-birinə bağlayan əsas hərəkət qovşağı olan Boğaziçi körpüsü belə, bağlanır. Qeyd olunanları nəzərə alaraq, yürüş vaxtı alternativ yollardan istifadə edilməsi xahiş edilir.

Sonra media nümayəndələrinin sualları cavablandırılmışdır.

# «Synergy Baku Cycling Project» komandasının təqdimatı

Aprelin 26-da Bakıda Azərbaycanın «Synergy Baku Cycling Project» velosiped komandasının təqdimat mərasimi keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov Azərbaycanda velosiped idmanının inkişafı sahəsində atılan addımlar barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, ölkə başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin idmanın bütün növlərinin inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində velosiped idmanı da son vaxtlar öz dirçəliş dövrünü yaşamaqdadır. Son bir ildə Federasiya tərəfindən velosiped idmanının populyarlaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, habelə bu idman növünün təbliği istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Həmin tədbirlər sırasında Azərbaycanın ilk peşəkar velosiped komandasının - «Synergy Baku Cycling Project»in yaradılması xüsusi yer tutur.

S.Ələkbərov demişdir ki, ölkəmizin ilk peşəkar velosiped klubunu formalaşdırmaqda məqsəd beynəlxalq yarışlarda iştirak etməklə ölkəmizi dünyada daha geniş tanıtmaq və təbliğ etmək, Azərbaycanda velosiped idmanına marağın artırılmasına nail olmaqdır.

Sonra «Synergy Baku Cycling Project» komandasının üzvlərinin və texniki heyətin təqdimatı olmuşdur. Təqdimatda ötən ilin sonlarında yaradılmış «Synergy Baku Cycling Project»in yaradılmasından keçən qısa müddət ərzində qazanılmış nailiyyətlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, komandanın «Tour de Langkawi» (Malayziya), «Tour de Taiwan» (Tayvan), «Tour of Thailand» (Tayland), «Le Tour de Filipines» (Filippin), «Melaka Governor`s Cup» (Malayziya), «Rutland GP» (Böyük Britaniya) kimi mötəbər yarışlarda uğurlu çıxışları ümidvericidir. Komandanın heyətinə Elçin Əsədov, Samir Cəbrayılov, David Clarke, Dan Craven, John Ebsen, Tural İsgəndərov, Aqşin Teymur İsmayılov, Anuar Manan, David McCann, Connor McConvey, Ruslan Mustafayev, Elvin Nağıyev, Kiril Pozdnyakov, Rico Rogers, Christoph Schweizer, Oleksandr Surutkovych daxildir. Komandaya rəhbərliyi uzun müddət İngiltərənin «SKY» komandasında böyük təcrübə toplamış Ceremi Hant həyata keçirir.




# Veloyürüşü işıqlandıracaq jurnalistlər üçün treninq

*Aprelin 30-da «Hilton» otelində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq veloyürüşü kütləvi informasiya vasitələrində işıqlandıracaq jurnalistlər üçün treninq keçirilmişdir.*

Treninqin aparıcısı, velosiped idmanı yarışları üzrə beynəlxalq ekspert Filip Selye maarifləndirmə xarakteri daşıyan tədbirin jurnalistlərin məlumatlandırılması məqsədilə təşkil olunduğunu bildirmişdir. F.Selye təqdimatında jurnalistlərə beynəlxalq səviyyədə təşkil olunan velosiped yarışları, habelə Azərbaycanda təşkil olunmuş veloyürüşün iştirakçısı olan komandalar barədə ətraflı məlumat vermiş, bəzi texniki məsələlərə aydınlıq gətirmişdir.

Treninqdə, həmçinin, veloyürüşün mərhələləri barədə ətraflı məlumat verilmiş, jurnalistlərə tədbirin işıqlandırılması qaydaları ətraflı izah edilmişdir.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılmışdır.

# «TOUR D`AZERBAIDJAN»a start verildi

*2013-ci il may ayının 1-dən 5-dək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş, Bakı şəhəri, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazisindən keçməklə 5 mərhələdən ibarət olan beynəlxalq velosiped turu keçiriləcəkdir. Tour D'Azerbaidjan - UCI Europe Tour çərçivəsində 2.2. kateqoriyası üzrə velosiped yarışıdır.*

Veloturun açılış mərasimi və komandaların təqdimatı aprel ayının 30-da Dənizkənarı Milli Parkda, Bakı Biznes Mərkəzinin yaxınlığında, saat 18.00-da olub. Açılış mərasimindən əvvəl Dənizkənarı Milli Parkda həvəskarlar arasında «7-dən 77-yə» devizi altında veloyürüş keçirilib.

Mərasim populyar türk müğənnisi Mustafa Cecelinin canlı konserti və Azərbaycan incəsənət ustalarının 3D-şou ilə müşayiət olunan möhtəşəm bayram konserti ilə yekunlaşıb.

Velosiped turu may ayının 1-də Heydər Əliyev Mərkəzinin qarşısından start götürəcək, Heydər Əliyev Mərkəzi-metronun «Koroğlu» stansiyası-Heydər Əliyev Mərkəzi marşrutu üzrə ümumi uzunluğu 157 km olan 11 dəfə dövrə vurmaqla başa çatacaq.

Turun ikinci mərhələsi may ayının 2-də Bakı şəhərində Şıx çimərliyi ilə üzbəüz ərazidəki yenidən qurulmuş müasir velosiped parkından start götürərək «Bakı-Abşeron-Qobustan-Şamaxı-İsmayıllı» marşrutu üzrə keçiriləcək və velosipedçilər 183 kilometr məsafə qət etdikdən sonra İsmayıllı şəhərində finiş xəttini keçəcəklər.

Üçüncü mərhələ mayın 3-də «Qəbələ-Oğuz-Şəki-Oğuz-Qəbələ» marşrutu üzrə (165 kilometr) keçiriləcək.

Dördüncü mərhələ mayın 4-də «Qəbələ-Şamaxı» marşrutunda davam edəcək. Velosipedçilər 116 kilometr məsafə qət edib, dəniz səviyyəsindən təxminən 1450 metr hündürlükdə yerləşən Pirqulu rəsədxanasının yaxınlığında, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin qarşısında finiş xəttini keçəcəklər.

Beşinci - sonuncu mərhələ isə mayın 5-də Azadlıq meydanından start götürərək, Bakı şəhərinin mərkəzi küçələri ilə 144 kilometr məsafədə 12 dəfə dövrə vurmaqla yekunlaşacaq.

Beynəlxalq velosiped turunun yerli və xarici kütləvi informasiya vasitələrində, o cümlədən Eurosport, Eurosport-2 və Euronews televiziya kanalları vasitəsilə geniş işıqlandırılması nəzərdə tutulur. Bu məqsədlə ölkəmizə həmin kanalların xeyli əməkdaşı ezam olunmuşdur.

**«TOUR D`AZERBAIDJAN» beynəlxalq velosiped turunda aşağıdakı komandalar iştirak edirlər:**

| | | |
|---|---|---|
| Synergy Baku Cycling Project | Azərbaycan | Kontinental |
| Team Vorarlberg | Avstriya | Kontinental |
| Rabobank Development Team | Niderland | Kontinental |
| Efapel – Glassdrive | Portuqaliya | Kontinental |
| Atlas Personal - Jakroo | İsveçrə | Kontinental |
| Torku Şekerspor | Türkiyə | Kontinental |
| J. Jensen – Ramirent | Danimarka | Kontinental |
| Leopard - Trek Continental Team | Lüksemburq | Kontinental |
| Rad-net Rose Team | Almaniya | Kontinental |
| Polygon Sweet Nice | İrlandiya | Kontinental |
| ISD Continental Team | Ukrayna | Kontinental |
| Alpha Baltic - Unitymarathons.com | Latviya | Kontinental |
| Helicopters | Rusiya | Kontinental |
| Velo Club Sovac | Əlcəzair | Kontinental |
| Start - Trigon Cycling Team | Paraqvay | Kontinental |
| Bridgestone Anchor | Yaponiya | Kontinental |
| Kontinental Team Astana | Qazaxıstan | Klub komandası |
| Lotto - Belisol U23 | Belçika | Klub komandası |
| Centre Mondial du Cyclisme | İsveçrə | Milli komanda |
| National Team Australia | Avstraliya | Milli komanda |
| National Team Iran | İran | Milli komanda |
| National Team Spain | İspaniya | Milli komanda |
| National Team Belarus | Belarus | Milli komanda |
| National Team Moldova | Moldova | Milli komanda |
| National Team Lithuania | Litva | Kontinental |

